Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 96 (7823) BAZAR, 29 aprel 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Bənzərsiz qardaşlıq nümunəsi

Elə iki ölkə tapmaq mümkün deyil ki, Azərbaycan və Türkiyə qədər bir-birinə qırılmaz, sıx dostluq və qardaşlıq telləri ilə bağlı olsun. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasındakı çıxışları, mətbuata bəyanatları bir daha bu qənaətə gəlməyə əsas verir ki, belə dostluq nümunəsinin dünya düzənində bənzəri yoxdur.

Ərdoğan qürur hissi ilə İlham Əliyevin aprelin 11-də keçirilmiş və böyük səs çoxluğu ilə qələbə qazandığı prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə etdiyini vurğuladı, bu münasibətlə türk xalqının adından xüsusi minnətdarlığını bildirdi və heç bir diplomatik görüşdə, heç kimin dilə gətirmədiyi "can Azərbaycan" ifadəsini işlətdi, dövlətimizin sabitlik zirvəsində bərq vuran fateh ölkə olduğunu təsdiqlədi.

Hər iki dövlət başçısı seçkilərdən sonra ilk xarici səfərlərinin qardaş ölkəyə etmələrini dilə gətirdi, bunun ənənəyə çevrilməsini qardaşlıq əlaqələrinin ən bariz nümunəsi kimi qeyd etdilər.

Məlum olduğu kimi, ötən ilin oktyabrındakı Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VI iclasından əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı baş tutmuşdu. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu xəttin səmərəli istifadəsi istiqamətində addımlar atılır, yeni layihələrin həyata keçirilməsi düşünülür. Bunlardan ən mühümü iqtisadi sahədə milli valyutaya keçidin reallaşmasıdır. Transanadolu təbii qaz kəməri - TANAP-ın açılışı isə bütün dünyaya iki qardaş ölkənin müjdəsi olacaq. Belə ki, "Cənub qaz dəhlizi"nin mühüm tərkib hissəsi olan TANAP layihəsi Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. İzmirin Əliağa rayonunda inşası davam edən "Star" neft emalı zavodunun açılışı sentyabr-oktyabr aylarında baş tutacaq.

Qürurverici məqam ondan ibarətdir ki, dünya düzəninə yeni qoşulan Azərbaycan Türkiyədə böyük investora, bir nömrəli sərmayəçiyə çevrilir. Ən vacibi isə odur ki, ikitərəfli əlaqələrin əhatə dairəsi genişlənir, Gürcüstan, Türkmənistan, İran, Pakistan və digər ölkələrlə üçtərəfli əməkdaşlıq formatının inkişafına təkan verilir.

İki qardaş ölkənin bu gün bütün istiqamətlərdə genişlənən iqtisadi əlaqələrinin dərin kökləri mövcuddur. Bütün tarixi hadisələr, qanlı çarpışmalar, siyasi burulğanlar zamanı iki qardaş ölkə bir-birinin yanında olmuş, acıları və uğurlarını bərabər bölmüşlər.

Bu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd edəcək. 100 il əvvəl həm də Azərbaycanın müstəqilliyi uğrunda döyüşə atılan Qafqaz İslam Ordusu yaradılıb. Hər iki ölkədə bu müqəddəs tarixin qeyd olunmasına ciddi hazırlıq görülür.

Azərbaycan xalqı da, hökuməti də həmişə, o cümlədən terrorla mübarizədə daim Türkiyənin yanındadır, Türkiyə Silahlı Qüvvələrinin "Zeytun budağı" əməliyyatına mənəvi dəstək verir. Həmçinin Türkiyə də Dağlıq Qarabağ məsələsinin həllində elə ilk gündən Azərbaycanın yanındadır, bütün səviyyələrdə onun maraqlarını qoruyur.

Mətbuata açıqlamasında Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə qədər bizə dəstək verən ikinci ölkə olmamışdır. Türkiyə hər zaman bizimlə bərabərdir, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu dəstək və həmrəylik bizə əlavə güc verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir".

İki qardaş ölkə bu gün Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edir, regional iş birliyini möhkəmləndirir və bölgədə sabitliyin qorunmasına xidmət edir. Bu iki qardaş dövlətin həyata keçirdiyi təşəbbüslər və layihələr iqtisadi məzmundan savayı, çox böyük siyasi məna da kəsb edir. İki ölkənin əməkdaşlığı bütün müstəvilərdə təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə köklənmişdir. Azərbaycan Türkiyə iqtisadiyyatına təqribən 14 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox sərmayə qoymuşdur. Azərbaycan sərmayəsi hesabına Ege bölgəsinin ən böyük limanı olan "Petlim" limanı inşa edilmişdir. Türkiyənin inkişaf etmiş modern müdafiə sənayesi Azərbaycan Ordusunun müasir silahlarla təmin edilməsində vacib rol oynayır və gələcəkdə də bu istiqamətdə müəyyən addımlar atılacaq.

İki dövlət başçısının budəfəki görüşü də təsdiq edir ki, Azərbaycanla Türkiyə arasında bütün sahələrdə əməkdaşlıq daha da genişlənəcək. Bu münasibətlərin genişlənməsinin maraqlı tərəflərindən biri odur ki, iki xalqın dostluğu, qardaşlığı dərinləşdikcə, bundan bütün dünya faydalanacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla Böyük Britaniya arasında siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir



Azərbaycanda uğurla başa çatan prezident seçkilərinin əsas məziyyətlərindən biri də respublikamızın demokratik dəyərlərə sadiqliyinin növbəti təsdiqi oldu. Əksər mötəbər beynəlxalq təşkilatlar bunu xüsusi qeyd etdilər. Bu gün Prezident İlham Əliyevin ünvanına təbriklər gəlməkdə davam edir. ABŞ Prezidenti Donald Tramp, Almaniya kansleri Anqela Merkel, Böyük Britaniyanın Baş naziri Tereza Mey, Fransa Prezidenti Emmanuel Makron cənab İlham Əliyevi Prezident seçilməsi münasibətilə təbrik ediblər.

Seçkidən sonra Prezident İlham Əliyevin Türkiyədən sonra növbəti xarici səfərini Böyük Britaniyaya etməsi göstərdi ki, demokratiyanı təşviq edən Qərbin mühüm siyasi mərkəzləri ölkəmizdəki prezident seçkilərini təqdir edirlər. Diqqəti çəkən bir də o idi ki, bu səfər Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə reallaşdı.

Azərbaycan Respublikasının dünyanın müxtəlif qütblərində qərar tutan dövlətlərlə qurduğu ikitərəfli əlaqələr, mehrbiban dostluq və əməkdaşlıq münasibətləri ildən-ilə genişlənərək məzmunca yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Əsas məqamlardan biri də odur ki, bu gün iqtisadi və geostrateji üstünlüklərindən maksimim yararlanmaqla daha yüksək inkişaf fazasına çatan Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi bütün dünyada etiraf olunan həqiqətdir.

Azərbaycan Prezidenti ilə görüşən hər bir dövlət və hökumət başçısı, xarici ölkələrin nümayəndə heyətləri, beynəlxalq təşkilatların təmsilçiləri Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini, münasibətləri dərinləşdirməkdə maraqlı olduqlarını birmənalı şəkildə bəyan edirlər. Çünki hər biri Azərbaycanın etibarlı tərəfdaş olduğunu, dünyanı təhdid edən qlobal problemlərin həllinə böyük töhfələr verdiyini görür və qəbul edir. Digər tərəfdən, Azərbaycanın gənc müstəqil dövlət kimi əldə etdiyi nailiyyətlər genişmiqyaslı və sanballıdır. Bu uğurlar ölkəmizin dünya birliyində böyük nüfuz qazanmasına, sivil və modern dövlətlərlə bir sırada dayanmasına zəmin yaradıb, respublikamızın beynəlxalq rəydə artan imicə malik olmasını təmin edib. Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Böyük Britaniyaya etdiyi səfər bunları bir daha təsdiq etdi.

Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci ilin dekabrında tanıyıb. İldən-ilə iki ölkə arasındakı münasibətlər daha da dərinləşib. İki ölkə arasında hazırkı siyasi münasibətlərin təməli ulu öndər Heydər Əliyevin Birləşmiş Krallığa 1994-cü və 1998-ci illərdə həyata keçirdiyi səfərləri zamanı qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Krallığa səfərləri yüksək səviyyəli siyasi dialoqun gücləndirilməsinə və ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə öz töhfəsini verib. Bu gün iki ölkə arasında yüksək səviyyəli siyasi, iqtisadi və mədəni münasibətlər mövcuddur. Bu ölkə Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyir. Birləşmiş Krallıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş hüququn norma və prinsipləri əsasında, sülh yolu ilə həllinin tərəfdarıdır və ATƏT-in Minsk Qrupu tərəfindən göstərilən səylərə dəstəyini ifadə edir. Bu gün Azərbaycanla Birləşmiş Krallıq arasındakı əlaqələri bütövlükdə strateji xarakterli münasibətlər adlandırmaq olar.

Britaniyanın BP şirkəti 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndə yer alan əsas xarici neft şirkətlərindən biridir.

*Ardı 3-cü səh.*




# Bakıda «Formula-1» coşqusu

## *Paytaxtımız Azərbaycan Qran-prisi ilə uğur estafetini davam etdirir*

Dünyanın ən mükəmməl idman mərkəzlərindən birinə çevrilən Azərbaycan demək olar ki, hər il mötəbər yarışlara evsahibliyi edir. Ölkəmizdə keçirilən Avropa və dünya çempionatları silsilə xarakteri daşıyır. Onlardan biri də artıq üçüncü dəfə Bakıda gerçəkləşən "Formula-1" Qran-prisidir.

Yarım milyard tamaşaçısı olan bu yarışa 2016-cı ildən evsahibliyi etməyə başlayan Azərbaycan öz ənənəsinə sadiq qalaraq ən mükəmməl təşkilatçılıq modelini yaradıb.

### Sürət həvəskarlarının diqqəti Bakıya yönəlib

Aprelin 27-də növbəti dəfə bütün sürət, adrenalin həvəskarlarının nəbzi Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyündü. Dünyanın ən möhtəşəm idman yarışlarından biri olan "Formula-1" üzrə Azərbaycan Qran-prisi start götürdü.



| 29 aprel | | |
|---|---|---|
| 13:00 - 14:00 | "Formula-2" | İkinci yarış |
| 15:00 - 15:25 | "Formula-1" | Açılış mərasimi |
| 16:10 - 18:00 | "Formula-1" | Qran-pri |

Çoxlu sayda siyasi, mədəni, idman və digər səpkili tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb edib. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs ölkəmizin inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə gördü. Hər kəs yüksək səviyyəli təşkilatçılığın növbəti dəfə şahidinə çevrildi.

### Qürur və sevinc hissi yaşadan möhtəşəm evsahibliyi

Bir nömrəli avtomobil yarışına ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın Azərbaycanda keçirilməsi dünyaya növbəti dəfə azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verib.

Yarışın ilk günündə yaşananlar göstərdi ki, bu idman növünə təkcə dünyada deyil, Azərbaycanda da böyük maraq yaranıb. Bunu yarışları izləmək üçün alınan biletlərlə də müəyyən etmək olur. Belə ki, hər il olduğu kimi, bu il də yarışa bilet alanlar arasında yerli "Formula-1" həvəskarları üstünlük təşkil edir.

*Ardı 6-cı səh.*

# Prezident İlham ƏLİYEV: “Biz dünyaya açığıq və eyni zamanda, öz milli dəyərlərimizi qoruyuruq”

*“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 58-ci kitabı çapdan çıxıb*




“Bizim sərvətimiz bizim müxtəlifliyimizdədir, bizim sərvətimiz bizim birliyimizdədir. Azərbaycanda yaşayan hər bir xalqın, hər bir dinin nümayəndəsinin hüquqları lazımi şəkildə qorunur. Azərbaycan bizim vətənimizdir, biz hamımız Azərbaycan vətəndaşlarıyıq və milli müxtəliflik, bir daha demək istəyirəm ki, bizim böyük sərvətimizdir. Bu, gözəl sözlər deyil, reallıqdır. Hər bir vətəndaş, xüsusilə çoxmillətli bölgələrdə yaşayan vətəndaşlar bu gözəl dinamikanı saxlamalıdırlar, bu reallıqları düzgün qiymətləndirməlidirlər və öz fəaliyyətləri ilə ümumi işimizə töhfə verməlidirlər.

Bir daha demək istəyirəm ki, bu gün Azərbaycan milli və dini problemlərin həlli işində nümunə ölkədir. Azərbaycanda keçirilən mötəbər beynəlxalq tədbirlər, bu tədbirlərdə səslənən fikirlər, o cümlədən dünya şöhrətli alimlərin, Nobel mükafatçılarının çıxışlarında səslənən fikirlər dediyim sözləri təsdiq edir. Biz dünyaya açığıq və eyni zamanda, öz milli dəyərlərimizi qoruyuruq. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas milli dəyərlərdir, bizim dəyərlərimizdir. Bu dəyərlər üzərində müasir, müstəqil dövlət qurulmuşdur və bu dövlət gündən-günə güclənir”.

AZƏRTAC xəbər verir ki, “İnkişaf - məqsədimizdir” çoxcildliyinin 58-ci kitabında yer alan bu fikirlər Azərbaycan Respublikası Prezidentinin 2013-cü il avqustun 17-də Balakən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 58-ci kitabındakı materiallar 2013-cü ilin iyulundan sentyabrınadək olan dövrü əhatə edir. Bu kitab dövlət başçısının Kazanda keçirilən XXVII Ümumdünya Yay Universiadasının qalibləri, mükafatçıları, onların məşqçiləri və respublikanın idman mütəxəssisləri ilə görüşünə dair informasiya ilə başlayır.

Kitaba Rusiya Federasiyası Prezidentinin və İtaliya Respublikası Baş nazirinin ölkəmizə səfərləri zamanı Azərbaycan Prezidentinin onlarla apardığı danışıqlara, mətbuata bəyanatlarına, imzalanan sənədlərə dair informasiyalar daxil edilib. Bu cilddə həmçinin Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında dövlət başçısının çıxışlarının mətnləri, türkdilli dövlətlərin rəhbərləri ilə görüşlərinə dair materiallar yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda dövlət başçısının Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu Məzunları Assosiasiyasının “MGİMO Journal” nəşrinə müsahibəsinin mətni də yer alıb.

Bu cilddə Prezident İlham Əliyevin Kürdəmir, İsmayıllı, Oğuz, Şəki, Qəbələ, Qax, Balakən, Zaqatala, Sabirabad, Saatlı, Ağcabədi, Salyan, Biləsuvar, Cəlilabad, Yardımlı, Masallı, Astara və Lənkəran rayonlarına səfərləri zamanı yeni mədəniyyət, təhsil və sənaye müəssisələrinin, infrastruktur obyektlərinin açılışlarında iştirakı, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair çoxsaylı materiallar toplanıb.

Kitaba “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri də daxil edilib.

“Azərnəşr” tərəfindən buraxılan 58-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən şərəf duyuram.

Birgə məqsədlərimizə nail olmaqda, Azərbaycan xalqının xoşbəxtliyi və firavanlığı naminə ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, möhkəm cansağlığı diləyirəm.

Zati-aliləri, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Joze Qratsiano da SİLVA,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru***

## Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Əliyev!

İcazə verin, Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Seçicilərin 86 faizdən çoxunun səsini qazanaraq əldə etdiyiniz zəfər Sizin ölkədəki yüksək nüfuzunuzun və Azərbaycanın inkişafı naminə həyata keçirdiyiniz siyasətə həqiqətən də ümumxalq dəstəyinin göstəricisidir.

Biz Sizin Moldova-Azərbaycan münasibətlərinin inkişafına verdiyiniz töhfəni yüksək qiymətləndiririk. Rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyası ilə sıx və məhsuldar əməkdaşlığın qurulmasına görə Sizə xüsusilə minnətdarıq.

Tam səmimiyyətlə ümid edirəm ki, ölkələrimiz və partiyalarımız arasındakı əməkdaşlığın uğurlu inkişafı gələcəkdə də davam edəcəkdir.

Sizə möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Zinaida QREÇANI,***
***Moldova Respublikası Sosialistlər Partiyasının sədri***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi “Vartsila” şirkəti adından təbrik edirəm. Prezidentliyinizin növbəti dönəmində biz davamlı sabitlik və təhlükəsizlik şəraitində Azərbaycanın Finlandiya biznesi və sənayesinin əsas tərəfdaşına çevrilməsini arzulayırıq. Həmçinin Azərbaycanın beynəlxalq və Avropa ticarəti sahəsində artan güclü nüfuzu əməkdaşlığın inkişafı üçün gözəl imkanlar açır.

Cənab Prezident, ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar, Azərbaycan xalqına isə rifah diləyirəm.

*Hörmətlə,*

***Jaakko ESKOLA,***
***Finlandiyanın “Vartsila” şirkətinin prezidenti və İdarə Heyətinin sədri***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Gürcüstan azərbaycanlıları adından səmimi-qəlbdən təbrik edirik.

Azərbaycanın inkişafı, ərazi bütövlüyünün bərpa olunması istiqamətində fəaliyyətinizdə Sizə uğurlar arzu edirik.

Ümidvarıq ki, xarici siyasətinizdə bizim vətənimiz Gürcüstana dostluq və qardaşlıq münasibətləri bundan sonra da yüksək səviyyədə olacaqdır.

*Hörmətlə,*

***Hüseyin YUSUBOV,***
***Gürcüstan Azərbaycanlıları Konqresinin sədri***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Azərbaycan xalqı bir daha həm özü, həm də vətən üçün düzgün seçim etdi. Sizin yenidən bu vəzifəyə seçilməyiniz bizim və övladlarımızın sabit və firavan gələcəyinə təminat verir.

Hörmətli Prezident, Dağlıq Qarabağ münaqişəsində irəliləyişlər, ölkənin əlverişli maliyyə vəziyyəti, dünya arenasında Azərbaycanın imici, xalqımızın firavanlığı və daha neçə-neçə üstünlüklər - bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyevin və Sizin gərgin və fədakar əməyinizin nəticəsidir. Azərbaycan və onun xalqı üçün qazandığınız bütün bu uğurlara görə Sizə çox minnətdarıq.

Azərbaycanın Cənubi Afrikadakı dostları Sizi yenidən Prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə və ailənizə uzun ömür və uğurlar arzulayırlar.

*Hörmətlə,*

***Cəmil MƏMMƏDƏLİZADƏ,***
***“Azərbaycanın Cənubi Afrikadakı dostları” qeyri-hökumət təşkilatının sədri***

# Əli HƏSƏNOV: “AŞ PA-da növbəti antiazərbaycan kampaniyasının başlanması təəccüblü deyil və təsadüfi xarakter daşımır”

Qərbdə Azərbaycana qarşı ardıcıl və məqsədyönlü şəkildə fəaliyyət göstərən dairələr, onların nəzarətində olan təşkilatlar və media ölkəmizdə keçirilən mühüm tədbirlər ərəfəsində daha da fəallaşır və cidd-cəhdlə həm Azərbaycanı, həm də həmin tədbiri qaralamağa çalışırlar.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook sosial şəbəkəsindəki səhifəsində AŞ PA-nın Azərbaycanla bağlı “hesabat”ı haqqında statusunda bildirib.



Əli Həsənov yazır: “Məlumdur ki, 2018-ci il başlayandan Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə evsahibliyi edib, ölkənin həyatında mühüm əhəmiyyət kəsb edən hadisələr baş verib. Aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkiləri ekspertlərin tam əksəriyyəti tərəfindən cənab İlham Əliyevə etimad referendumu kimi dəyərləndirildi. Seçkilərdən sonra yeni hökumətin formalaşdırılması istiqamətində atılan addımlar cəmiyyət tərəfindən olduqca pozitiv qarşılandı. Biz ilk müsəlman demokratiyasının qurulmasının 100 illiyini qeyd edirik, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımının bir əsrlik tarixinə beynəlxalq platformalarda hüquqi-siyasi qiymət verilməsi üçün ciddi kampaniya təşkil olunub. Azərbaycanın liderliyi ilə həyata keçirilən “Cənub qaz dəhlizi” layihəsinin bəzi komponentləri üzərində işlər yekunlaşır və bir müddət sonra TANAP-ın açılışını qeyd edəcəyik. Mühüm geostrateji əhəmiyyətə malik nəqliyyat layihələrinin həyata keçirilməsi ilə bağlı çox əhəmiyyətli qərarlar qəbul olunub və bu istiqamət üzrə işlər uğurla davam etdirilir. Bu günlərdə isə “Formula-1” yarışlarını izləyən dünya idmansevərləri həm də müasir Bakının möhtəşəmliyinə heyran qaldıqlarını gizlətmirlər.

Baxın! Bu tədbirlər 2018-ci ilin dörd ayında baş verib. Hələ qarşıda öz möhtəşəmliyi ilə dünya ictimaiyyətinin diqqətini ölkəmizə cəlb edəcək hadisələr var.

Bəs Ermənistanda nə baş verir?! Bu ölkədə Azərbaycanla eyni vaxtda keçirilmiş seçkilərdən sonra coşmuş ehtiraslar, xalq narazılığı səngimək bilmir. Erməni xalqı uzun illərdir onu istismar edən, beynəlxalq aləmdən, regionun siyasi və iqtisadi həyatından təcrid halına salmış, bütün maddi resurslarını mənimsəmiş Serj Sarkisyanı istefaya göndərsə də, sakitləşmir. Dünən baş nazir “seçilməsi” münasibətilə Sarkisyanı təbrik edənlərin, Ermənistana rifah arzulayanların bugünkü məyusluğunu başa düşürük.

Görünür, məhz bu mənzərə - bir tərəfdə güclü və öz inkişafını uğurla davam etdirən Azərbaycan, digər tərəfdə də siyasi kataklizmlər burulğanında çabalayan, sabaha heç bir ümidi olmayan Ermənistan reallığı xarici antiazərbaycan dairələri ciddi narahat edir. Əminəm ki, böyük maliyyə sərfiyyatı hesabına başa gələn “söyüş kampaniyası”nın səmərəsizliyi də onların yuxusunu ərşə çəkib.

Məhz belə bir məqamda antiazərbaycan fəaliyyəti dəfələrlə sübut edilmiş bəzi Qərb QHT-ləri və mediası tərəfindən irəli sürülən subyektiv mülahizələr əsasında AŞ PA-da növbəti kampaniyanın başlanması heç də təəccüblü görünmür və təsadüfi xarakter daşımır. Qərbin bir sıra transmilli nəşrlərində xüsusi səhifələr alaraq “araşdırmalarını” dərc edən OCCRP şəbəkəsinin və onun arxasındakı qüvvələrin nə istədiyini anlayırıq.

Onlar qlobal miqyasda səs salan, iriölçülü siyasi xəritədə nəzərəçarpan kiçik bir dövlətin müstəqil siyasətini qəbul etmək istəmirlər. Keçmiş sovet periferiyasının - Azərbaycanın öz milli sərvətlərinə sahib çıxması, güclənməsi və beynəlxalq aktora çevrilməsi həmin dairələri məmnun etmir. Artıq daxildəki “5-ci kolon” vasitəsilə iğtişaşlar təşkil etmək, qarışıqlıq salmaq və Azərbaycanı fakt qarşısında qoymaq, onu güzəştə məcbur etmək mümkün deyil.

Azərbaycan Qərbin qonşu dövlətlərlə bağlı apardığı kampaniyaların, sanksiyaların heç birinə qoşulmur, öz ərazisindən bu və ya digər ölkəyə qarşı platsdarm kimi istifadə edilməsinə imkan vermir. Azərbaycan 1990-cı illərin “demokratiya dalğası”nı onun vasitəsilə cənuba və Mərkəzi Asiyaya ixrac təşəbbüslərinə də müsbət yanaşmamışdı, bu gün də Böyük Yaxın Şərq, yeni “şiə hilalı” kimi proyektlərdə də yer almır, dost Rusiya, İran və Türkiyə xalqları əleyhinə heç bir sazişdə iştirak etmir. Hərçənd, bununla bağlı yetərincə təşviq, təhrik və təzyiqlər olub və davam edir.

Azərbaycan xarici siyasət kursunu müstəqil şəkildə, öz milli maraqlarına uyğun müəyyənləşdirib həyata keçirir, beynəlxalq təşkilatların tribunalarında xalqın mövqeyi ifadə olunur. Bir sözlə, əhalisinin sayı 10 milyona çatmamış bir ölkə dünyanın hegemon qüvvələrinin təzyiqləri qarşısında direniş göstərir, öz xəttini yürüdür və beynəlxalq aləmdə etibarlı tərəfdaş, güvənilə bilən müttəfiq kimi böyük nüfuz və hörmət qazanıb.

İstənilən dövlətin xarici siyasətində milli mənafelər naminə diasporun və xaricdəki mənafe qruplarının gücündən istifadə etmək istiqaməti mühüm yer tutur. Lobbiçilik Qərb siyasətinin dünyaya tanıtdığı fəaliyyətdir. Qərb ölkələrinin bir çoxunda, məsələn ABŞ-da bu fəaliyyət qanunla tənzimlənir. ABŞ xaricdə həmin məqsədlər üçün ildə 200 milyard dollardan çox vəsait xərcləyir. Avropa İttifaqı “Şərq tərəfdaşlığı” proqramı da daxil olmaqla siyasət, təhsil, QHT sahəsinə aid layihələrə yüz milyonlarla avro sərf edir.

Azərbaycan da eyni yolu gedir, ölkəmizdə iqtisadi maraqları olan şirkət və qurumların, enerji və nəqliyyat dəhlizləri siyasətindən bəhrələnən dövlətlərin gücündən istifadə edir, ayrı-ayrı siyasətçilər, media strukturları, QHT-lər, parlament fraksiyaları ilə işləməyə can atır. Heydər Əliyev Fondu, AIDA xətti ilə mühüm layihələr həyata keçirilir, ölkənin imici naminə beynəlxalq tədbirlərə evsahibliyi edilir. Azərbaycan beynəlxalq təşkilatlarla iş aparmamalıdırmı? Gələn qonaqlar ac yola salınmalıdırmı? Onlara ölkəmizin simvolu olan suvenirlərin təqdim edilməsində nə qəbahət var?

Ermənipərəst “People in Need”, eləcə də “Freedom House”, “Amnesty International” və “Human Rights Watch” kimi təşkilatların maliyyələşməsində xüsusi rolu olan “Carnegie Corporation”un rəhbərliyi erməni diasporunun nümayəndələrindən ibarətdir. Dövlət katibi olarkən öz kabinetini antiazərbaycan kampaniyaları üçün qərargaha çevirmiş Con Kerri də bu gün “Carnegie Corporation”da ekspert kimi çalışır. Nədən ermənilərin lobbi fəaliyyətinə Qərbdə “yaşıl işıq” yandırılmalı, Azərbaycan əleyhinə fəaliyyəti belə açıq şəkildə stimullaşdırılmalı, amma Azərbaycan dövlətinin özünü müdafiə etmək haqqı tanınmamalıdır?

Siyasi pərdəarxası xəbərlərin aktiv izləyiciləri yəqin ki, xatırlayırlar - Azərbaycan yenicə müstəqillik əldə etdiyi dövrdə Qərbin müxtəlif işbaz qurumları, biznesmenləri, siyasətçiləri ölkəmizlə işbirliyi qurmağa çalışır və beynəlxalq arenada onun PR-nı təşkil etmək üçün öz təkliflərini irəli sürürdülər. Əksər hallarda da təkliflərin arxasında Azərbaycanın milli sərvətlərindən pay qoparmaq cəhdi dayanırdı. Azərbaycanın milli sərvətlərini belə stereotip düşüncəsi olan, yeni “fəth edilmiş” keçmiş sovet əyalətinə qənimət arxasınca gedən “quldurlar”a verib onlarlamı işləməliydik?

Əgər Azərbaycan beynəlxalq arenada öz maraqlarını müdafiə etmək üçün fəal siyasi və iqtisadi qruplardan, sağlam düşüncəli nüfuzlu şəxslərdən istifadə edirsə, bunun nəyi pisdir? Bəs formalaşdırılmış lobbi Azərbaycan üçün hansı işləri görüb? Avropanın müxtəlif strukturlarının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı indiyədək qəbul etdiyi sənədlərin sadəcə sadalanması kifayət qədər yer və zaman alardı. Bu uğurda həm Azərbaycan diplomatiyasının, həm də diasporun böyük əməyi var. İlk dəfə belə sənədlər qəbul ediləndə o zaman AŞ PA-dakı erməni nümayəndə heyəti və Ermənistan xarici siyasət idarəsinin uzun müddət hansı şok yaşadığını nə tez unutduq?

2013-cü ildə iflasa uğramış bədnam “Ştrasser layihəsi”nin şokunu yaşayanlar AŞ PA-dakı “korrupsiya hesabatı”ndan sonra yenidən “siyasi məhbus” məsələsində qisasa və revanşa hazırlaşırlar. Bu, Azərbaycana, onun milli maraqlarına qarşı qurulmuş növbəti məkrli oyundur. Necə düşünürsünüz, dövlət öz mənafeyini qorumalı deyilmi?

Biz xarici antiazərbaycan dairələrin məqsədlərini başa düşürük, ancaq Azərbaycandan olan və bu kampaniyalara dəstək verənləri, o qarayaxmalarda yer alanları anlaya bilmirik. Həmişə erməni lobbisinin fəaliyyətini nümunə göstərərək Azərbaycanı öz gücünə iqtisadi lobbi, siyasi dəstək qrupları formalaşdırmamaqda ittiham edənlərin bugünkü əks-mövqeyini məntiqlə izah etmək mümkün deyil.

Biz ölkə daxilindəki opponentlərdən “niyə Azərbaycan lobbisi Avropa strukturlarında, Qərb dövlətlərinin parlamentlərində, beynəlxalq strukturlarda azdır?”, “niyə bu və ya digər Qərb ölkəsində ictimai rəyə təsiri olan qurum, QHT, düşüncə mərkəzi Azərbaycan lobbisinə çevrilməyib?” suallarını eşitmək istəyirik. Bunun qısa cavabı da var. Birincisi, lobbini yaratmaq kifayət qədər böyük zaman və gərgin fəaliyyət tələb edir. Cənab Prezidentin son təyinatlarının bu işi daha da sürətləndirəcəyinə heç bir şübhə yoxdur. İkincisi, bəzən diaspor və lobbi quruculuğuna dəstək göstərməli olan bəzi şəxslər, sadəcə, xəyanət yolu tutublar. Avropa Şurası yanında səfir postu kimi yüksək vəzifə tutan diplomat indi AŞ PA və digər Avropa strukturlarına Azərbaycanın lobbi fəaliyyəti barədə gizli şikayət-donos göndərməsi haqda “qürurla” danışır. Çox mühüm səbəb budur - lobbi qurmalı olanlardan bəziləri bu işin önünü kəsmək üçün hətta xəyanəti belə göz önünə alıblar.

Lobbi quruculuğuna yardım edəcək bəzi diaspor nümayəndələri isə Qərbin formalaşdırdığı “iaşə müxalifəti”nə çevrilib və Azərbaycan dövlətinə qarşı erməni lobbisi ilə birlikdə mübarizə aparırlar. Həmin “iaşə müxalifəti” AŞ PA-da ermənipərəst “People in Need” təşkilatının dinləmələrində canfəşanlıq edir.

Ancaq nə qədər acınacaqlı görünsə də, opponentlər bizi lobbinin zəifliyində deyil, ümumiyyətlə, lobbi fəaliyyətini təşkil etməkdə günahlandırırlar. Avropanın bəlli çevrələrindən bəhrələnən radikal müxalifətin xalqın heysiyyətinə hesablanmış və XIX əsrə xas “vaveyla şəriət əldən getdi” tərzdə şüarı, hətta hansısa hoteldə baş verən hadisəyə görə hakimiyyəti ittiham etməsi onların populizminin və primitivliyinin göstəricisidir. Əvvəla, Pedro Aqramuntun məlum açıqlaması bu iddialara çox tutarlı cavab oldu. Digər tərəfdən isə, bir müddət əvvəl “niyə hotellərdə cütlüklərdən sənəd tələb olunur” deyənlərin bu gün tam əks fikir səsləndirməsi onların sadəcə manipulyasiya həvəskarı olduğunu təsdiq edir.

İndi sadə bir suala cavab istəyirəm: əgər hər hansı hoteldə hansısa xoşagəlməz hadisə baş veribsə, kimsə kiməsə nə isə təklif edibsə, bunda hakimiyyəti ittiham etmək nə dərəcədə düzgündür?

Biz, bəzi ölkələrin nümunəsinə uyğun olaraq, opponentlərimizdən milli məsələlərdə sağlam düşüncə, obyektiv mövqe gözləyirik. Siz hakimiyyətə qarşı müxalif ola bilərsiniz, amma dövlət və xalqa qarşı müxalifətçilik heç bir dövrdə və heç bir xalqın tarixində təqdir olunmayıb.

Görünür, xarici dairələr hakimiyyət opponentlərinin xidmətlərindən yararlanmaqla Azərbaycan dövlətini gözdən salacaq ictimai narazılıq formalaşdırmağa can atırlar. Lakin əminliklə deyə bilərik ki, əvvəllər olduğu kimi, bu süni ajiotaj yaratmaq cəhdi də uğursuzluğa məhkumdur. Azərbaycan əməkdaşlığa, tərəfdaşlığa açıq ölkədir, lakin heç vaxt təzyiq, şantaj, təhdid siyasətini qəbul etməyib və etməyəcək. Buna görə də belə cılız kampaniyalarla Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirmək cəhdinin iflasa uğrayacağı heç bir şübhə doğurmur”.

# AŞ PA nüfuzuna xələl gətirir

## *Qurumun qərəzli “hesabatı” təsdiq edir ki, artıq bu təşkilatı ədalət idarə etmir*

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan uğurlu geosiyasi və geoiqtisadi təşəbbüsləri nəticəsində regionun lider dövlətinə çevrilib. Bu gün demək olar ki, onun iştirakı və razılığı olmadan dünyanın strateji regionu olan Cənubi Qafqazda heç bir iqtisadi və nəqliyyat layihələri reallaşdırılmır. Bu gün Azərbaycan regionda ən güclü qüvvə və lokomotivdir.

Məhz bu səbəblər və Azərbaycanın getdikcə artan nüfuzu bəzi xarici qüvvələri daim narahat edir. Antiazərbaycançı şəbəkə müxtəlif təşkilatlar, beynəlxalq qurumların vasitəsilə ölkəmizə qarşı çirkin kampaniyalar təşkil edir. Bəzi beynəlxalq təşkilatların hazırladıqları qərəzli hesabatlarda ölkəmizin adını gah korrupsiya qalmaqallarında, gah da insan hüquq və azadlıqlarının pozulması prosesində hallandırıb bununla təzyiq göstərməyə çalışırlar.

Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) son qərəzli “hesabatı” göstərir ki, bu təşkilat siyasi sifarişlər yerinə yetirməyə başlayıb. Yəni AŞ PA-nı artıq demokratiya və ədalət idarə etmir.

Korrupsiya bütün sistemin pozulmasına, inkişafın və rifahın ləngiməsinə səbəb olan ən təhlükəli məsələ olduğundan onun araşdırılması vacibdir. Ancaq bu hesabatdan görünür ki, AŞ PA-nın bəzi üzvləri bundan sui-istifadə edirlər. Aydın görünür ki, məqsəd üzv dövlətləri, o cümlədən Azərbaycanı qaralamaqdır.

Azərbaycanla bağlı “hesabat” konkret olaraq gənc, demokratik, mürəkkəb regionda yerləşən üzv dövlətin - bütün təhlükələrə baxmayaraq dəyərləri paylaşan, təkcə özü üçün deyil, tərəfdaşları üçün də fayda gətirmək məqsədilə yorulmadan səy göstərən dövlətin imicinə xələl gətirmək məqsədi daşıyır.

Görünən odur ki, son vaxtlar nüfuzuna xələl gətirməyə başlayan AŞ PA artıq qlobal və regional proseslərdə geosiyasi təzyiq aləti funksiyasını yerinə yetirir. Elə Azərbaycanla bağlı sonuncu hesabatı da şantaj xarakterlidir. “Korrupsiya hesabatı” qeyri-obyektiv və qərəzlidir, ayrı-ayrı şəxslərin fərziyyə, ehtimal və gümanları üzərində qurulmuş subyektiv mülahizələrdir. AŞ PA-nın “hesabatı” Qərbin antiazərbaycan, islamofob və ermənipərəst qruplarının qurduğu növbəti oyundur.

Onu da vurğulayaq ki, AŞ PA-nın monitorinqləri müxtəlif dairələrin mənafeyinə xidmət edir və müstəqil dövlətlərə təzyiq məqsədi güdür. Ona görə də bu uydurma “hesabat” təşkilatda Azərbaycana qarşı ikili standartlar siyasətinin yeni dalğasının başlandığını göstərir.

AŞ PA-da Azərbaycana qarşı ardıcıl şəkildə həyata keçirilən hücumlar bu təşkilatın siyasi təzyiq vasitəsinə çevrildiyini açıq şəkildə nümayiş etdirir. Bir vaxtlar Kristofer Ştrasserin uydurduğu qondarma “siyasi məhbus” oyunu və bununla bağlı qurumda aparılan müzakirələr, indi isə bədnam “hesabat” təsdiq edir ki, Qərbdəki bəzi dairələr öz eybəcərliklərini Azərbaycan nümunəsində qabartmağa və onu növbəti dəfə ittiham hədəfinə çevirməyə çalışırlar.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan AŞ PA-ya üzvlük məsələsini yenidən nəzərdən keçirməlidir. AŞ PA kimi ikili standartlar, qarayaxma və ləkələmə nümunəsinin tüğyan etdiyi bir təşkilat Azərbaycanın nəyinə lazımdır?

Əgər diqqət etsək görərik ki, 17 illik üzvlüyü dövründə AŞ PA Azərbaycana heç nə verməyib. Ümumiyyətlə, Qərbə inteqrasiya mərhələlərində ölkəmiz dəfələrlə təzyiqlər, ikili standartlar, qarayaxma və ləkələmə kampaniyasına məruz qalıb.

Belədirsə, beynəlxalq hüquq normalarının təmin edilməsi, Ermənistanın işğalçı siyasətinin aradan qaldırılması istiqamətində də heç bir təsirli addım atmayan Avropa Şurasından nə gözləmək olar?

Hələ bir neçə il öncə Prezident İlham Əliyev Avropa Şurasına xəbərdarlıq etmişdi. Dövlət başçısı Azərbaycana qarşı aparılan çirkin kampaniyaların dayandırılmasını tələb edirdi: “Azərbaycanı nə qədər təhqir etmək olar? Bizi nə qədər alçaltmaq cəhdləri göstərilə bilər? Artıq bizim hövsələmiz tükənib. Biz Avropa Şurasız da yaxşı yaşaya bilərik, yaşamışıq da. 2001-ci ilə qədər yaşamışıq... Biz oraya üzv olmuşuq ki, ilk növbədə Qarabağ problemi həll edilsin. Məsələ bunda idi. Biz bilirdik ki, Ermənistan Avropa Şurasına üzv olmağa can atır. Biz istəyirdik ki, biz də orada olaq və bu məsələ ədalətli şəkildə həll edilsin. Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamofobiya, paxıllıq, bədniyyət. Ona görə, yenə də bu mövzuya qayıdıram. Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi”.

Əlbəttə ki, Azərbaycan ictimaiyyəti Avropa təsisatlarının özünə qarşı ədalətsiz mövqeyini heç vaxt qəbul etməyəcək. Çünki Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strategiyası Azərbaycanın xarici siyasətinin təməl daşıdır. Rəsmi Bakı dəfələrlə sübut edib ki, heç kəs Azərbaycanla ultimatum dilində danışa bilməz. Əgər AŞ PA da belə qərəzli mövqe sərgiləməkdə davam edəcəksə, təbii ki, Azərbaycan dövləti bununla bağlı əsaslandırılmış qərarını verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycanla Böyük Britaniya arasında siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir



Əvvəli 1-ci səh.

Bütövlükdə ötən 23 ildə BP Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə enerji sənayesində Azərbaycanın əsas tərəfdaşı olaraq qalmaqdadır. Bu tərəfdaşlıq nəticəsində Böyük Britaniya Azərbaycana ən çox investisiya yatıran ölkəyə çevrilib. Hansı ki, bu investisiyalar ölkəmizdəki bütün xarici investisiyaların təxminən 50 faizini təşkil edir. Bunun da nəticəsində Britaniya Azərbaycanda ən böyük xarici investor ölkə statusunu qoruyur. Ümumilikdə isə Azərbaycanda Britaniyanın təxminən 400-ə yaxın şirkəti fəaliyyət göstərir, həmçinin Bakıda xeyli Britaniya vətəndaşı yaşayır.

"Əsrin müqaviləsi"ndən sonra Azərbaycanın həyata keçirdiyi bütün neft-qaz layihələrində Böyük Britaniyanın BP şirkəti iştirak edib. Prezident İlham Əliyevin Böyük Britaniyaya bu səfəri də iki ölkə arasında enerji sahəsində əməkdaşlıqla bağlı yeni mərhələnin əsasını qoydu.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey Azərbaycan Prezidentinin bu səfərinin iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağını bildirdi və SOCAR-la BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparıldığını, bunun üçün böyük potensialın olduğunu bildirən dövlət başçısı Böyük Britaniyanın bir çox şirkətlərinin Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərdiyini, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıdığını diqqətə çatdırdı. İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını Prezident İlham Əliyev onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı.

D230 bloku Xəzər dənizində Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr məsafədə yerləşir. Blok təxminən 3200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3500 metrdir. 25 illik müddəti əhatə edən sazişə əsasən, BP 50 faiz işitrak payına malik olmaqla kəşfiyyat dövründə operator olacaq, iştirak payının digər 50 faizi isə SOCAR-a məxsus olacaq.

Azərbaycan öz tərəfdaşı kimi Böyük Britaniya ilə ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə mühüm əhəmiyyət verir. Eyni zamanda Birləşmiş Krallıq da ölkəmizlə münasibətlərin dərinləşməsində maraqlıdır. Azərbaycan Prezidentinin Londona səfəri və imzalanan yeni neft sazişi bunu təsdiq etdi. Bu neft sazişi həm də onu təsdiq edir ki, Azərbaycan tam müstəqil enerji siyasəti həyata keçirir. Digər tərəfdən, həyata keçirilən neft layihələri həm də Azərbaycanın iqtisadi müstəqilliyinin və inkişafının təməlində dayanan əsas faktordur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yeni sədri kollektivə təqdim olunub



Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yeni sədri Ülvi Mehdiyev kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, yeni sədri kollektivə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov təqdim edib.

Xatırladaq ki, Ülvi Mehdiyev Azərbaycan Prezidentinin 2018-ci il 27 aprel tarixli sərəncamı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri təyin olunub.

# Azərbaycanın müdafiə naziri Çinin "CETC International"şirkətində olub



Çin Xalq Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov aprelin 28-də bu ölkənin müdafiə sənayesi sahəsində yüksək texnologiyalı məhsullar istehsal edən "CETC International" şirkətinin fəaliyyəti ilə tanış olub. Müəssisənin rəhbərliyi ilə görüşdə Azərbaycan ilə Çin arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə edilib.

Sonra müdafiə naziri şirkətin istehsal etdiyi hərbi təyinatlı döyüş vasitələrinə baxıb.

Bildirilib ki, şirkət əsasən elektron komponentlərin və avadanlığın istehsalı ilə məşhurdur. Dünyanın 100-dən çox ölkəsi ilə əməkdaşlıq edən "CETC International" şirkəti hazır məhsullarının çeşidinin və keyfiyyətinin səviyyəsi ilə seçilir.

***AZƏRTAC***

# Prezident İlham Əliyev və Azərbaycan tarixi

*Ölkə rəhbərinin müasir Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan tarixinə və bu tarixin doğru-düzgün araşdırılmasına gündəlik qayğısıdır*

**"Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".**

**İlham ƏLİYEV**

Azərbaycan bu gün dünyanın davamlı olaraq sürətlə inkişaf edən ölkəsidir. Müstəqillik qazanmasından keçən iyirmi yeddi ildə Azərbaycan Respublikası Avrasiyanın qüdrətli, Cənubi Qafqazın isə lider dövlətinə çevrilmişdir. Ölkə rəhbəri tərəfindən həyata keçirilən müdrik, uzaqgörən, cəsarətli və xalqın milli mənafelərinin müdafiə olunmasına yönəlmiş siyasət sayəsində Azərbaycan inkişafın böyük intibah dövrünü yaşamaqdadır.

Tarixi baxımdan çox qısa bir zaman kəsiyində əldə edilən yüksək nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dirçəliş və inkişaf strategiyasının yaradıcılıqla və uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu strategiyanın gerçəkliyə çevrilməsində yeni dövrün - qloballaşan dünyanın böyük dövlət xadimi İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti, dövlət başçısı ilə xalq arasında yaranmış sarsılmaz birlik həlledici rol oynayır. Azərbaycan dövlətinə başçılıq edən Prezident İlham Əliyev yaşadığımız dinamik dünyanın nəbzini əlində saxlayır, müasir, çevik və cəsarətli lider kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən dəyişikliklərdən öz Vətəninin və xalqının xeyrinə məharətlə istifadə edir, yurdumuzu gözlənilməz və gözlənilən risklərdən uğurla qoruyur. Ölkə rəhbəri müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün dəyişiklikləri irəlicədən görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün qabaqcadan hazırlayır, öz Vətənini həyatın bütün sahələrində qələbədən-qələbəyə qovuşdurur. *Doğma xalqının parlaq gələcəyinə hesablanmış müdrik islahatlar həyata keçirən böyük dövlət xadimi İlham Əliyevin - qurucu Prezidentin inkişafın bütün sahələrini əhatə edən zəfər yürüşü uğurla davam edir!*

Haradan və nələrdən qaynaqlanır dövlət başçısının xalqımıza şərəf gətirən bu uğurları? *Prezident İlham Əliyev, hər şeydən əvvəl, çoxlarına nəsib olmayan nadir bir siyasi məktəbin - dahi Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsidir, bu məktəbin yeganə məzunudur.* Bu məktəbdə o, dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmişdir. Prezident İlham Əliyev ulu öndərin yolu ilə gedərək mükəmməl siyasi təhsil almışdır. Onların hər ikisi - həm ata, həm də oğul doğma Vətənin və dünyanın tarixini öyrənməyə xüsusi maraq göstərmiş, dərin və hərtərəfli tarixi biliklərə yiyələnmiş, ali tarix təhsili almışlar: ata - Heydər Əliyev Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmiş, oğul - İlham Əliyev isə dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, elmi tədqiqat işləri aparmış, dissertasiya müdafiə etmişdir. Beləcə, Azərbaycan xalqına başçılıq edən və dünyanın görkəmli dövlət xadimi olan Prezident İlham Əliyev dərin nəzəri biliklərə və Heydər Əliyevin dövlət idarəçiliyi təcrübəsinə yiyələnmiş, Azərbaycanın tarixini dərindən öyrənmiş, dünya tarixinin həlledici proseslərinin köklərini bilən peşəkar siyasətçidir ...

Sübuta ehtiyacı olmayan bir aksioma var: Tarixinə sahib çıxmayan xalq məhvə məhkumdur. Doğma tarixi ilə silahlanmış xalq isə məğlubedilməzdir! *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müasir Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan tarixinə və bu tarixin doğru-düzgün araşdırılmasına gündəlik qayğısıdır.*

Bu gün Azərbaycan tarix elmi İlham Əliyevin konkret tapşırıqları, çağırışları və tövsiyələri əsasında inkişaf edir. Tarixçi Prezidentin istər ölkə əhəmiyyətli müxtəlif tədbirlərdə, istərsə də beynəlxalq arenada Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırması, Azərbaycan tarixinin bütün həqiqətlərini güclü elmi arqumentlərlə əsaslandırması onun Vətən təəssübkeşliyindən, vətənpərvərlik ruhundan və güclü elmi-nəzəri biliklərindən qaynaqlanır. Azərbaycan Prezidenti doğma tariximizlə bağlı elmi-nəzəri və zəngin faktik materiala əsaslanan konseptual baxışa malikdir.

*İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışının elmi-nəzəri və ideoloji əsasını Heydər Əliyev Dirçəliş Konsepsiyası təşkil edir.* Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Nadir şah Əfşar kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Əsrlər keçdikdən sonra - XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir dövlət xadimləri sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu. Ulu öndərin doğma Vətəni və xalqı qarşısındakı misilsiz xidmətlərindən biri də tarixçi - prezident kimi tariximizin dirçəliş konsepsiyasını formalaşdırmasıdır. Dahi dövlət xadimi müstəqillik dövrümüzün bu mükəmməl tarix konsepsiyasını 2001-ci ildəki məşhur müraciətində doğma xalqına əmanət etmişdir. Heydər Əliyevin 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti yaşadığımız eranın XX və XXI yüzilliklərinin, İkinci və Üçüncü minilliklərinin qovşağında xalqımızın mənəvi sərvətlər xəzinəsinə daxil olmuş nadir incidir.

"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayırıcında" adı ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş 60 milyonluq xalqımıza ünvanlanmış bu müraciət, heç şübhəsiz, gələcək minilliklərdə də öz qiymətini, aktuallığını saxlayacaq misilsiz elmi-nəzəri ümumiləşdirmədir. Ulu keçmişimizin və müasir tariximizin ensiklopedik şərhini, gələcək inkişafımızın elmi-nəzəri proqnozlarını verən bu əsərdə xalqımızın keçdiyi tarixi yola dərindən nəzər salınır, mühüm tarixi proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət verilir, prinsipial münasibət bildirilir. Bu baxımdan, *"Azərbaycan XXI əsrin və Üçüncü minilliyin ayırıcında" adlı müraciət bütün tarix elmimiz üçün örnək ola biləcək çox dəyərli bir tarix əsəridir.* Heydər Əliyev təfəkkürünün məhsulu olan bu qiymətli əsərdə tariximizin bir çox problemləri ilə bağlı olaraq tədqiqatçılara konkret və prinsipial istiqamət verilir. Böyük dövlət xadimi, hər şeydən əvvəl, bəşəriyyətin yaxın keçmişinə - XX yüzilliyə son dərəcə sərrast və konkret qiymət vermişdir. Özü də bu qiymətləndirmə zamanı ayrı-ayrı siyasi hadisələr, proseslər deyil, müasir dünyamızda insanlığı irəli aparan başlıca amil, daha doğrusu, sürətli elmi-texniki tərəqqi ön plana çəkilir, sonra isə başqa amillər sıralanır. Həm də bu sıralanma zamanı yeni suveren dövlətlərin yaranması kimi mühüm tarixi reallıq xüsusi qeyd olunur.

İlham Əliyev bu konsepsiyanı sürətlə dəyişən dünyanın tələblərinə və çağırışlarına uyğun olaraq daha da təkmilləşdirmişdir və yüksək yaradıcılıqla həyata keçirir. Tariximizin Heydər Əliyev Dirçəliş Konsepsiyası, bu konsepsiyanı təkmilləşdirən və həyata keçirən Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual baxışı, tariximizin azərbaycançılıq ruhunda və obyektiv tədqiqi istiqamətində verdiyi tövsiyə və tapşırıqlar, tarix elminin inkişafına göstərdiyi böyük qayğı Azərbaycan tarixçisinin elmi tədqiqat konstitusiyasıdır.

Prezident İlham Əliyevin Azərbaycan tarixinə konseptual elmi baxışı, həm, də xalqımızın qədim və zəngin dövlətçilik ənənələrinə əsaslanır. İlham Əliyevin tariximizin istənilən taleyüklü problemlərinə münasibətdə sərrast və prinsipial mövqeyi, onun tariximizin ayrı-ayrı dövrlərdə qəsdən və bəd niyyətlərlə saxtalaşdırılmış və təhrif olunmuş məsələlərinin yenidən araşdırılması ilə bağlı tarixçilərə verdiyi çox mühüm və konkret tapşırıqlar aydın göstərir ki, dövlət başçısı doğma tariximizi, xalqımızın zəngin keçmişini, onun yaratdığı təkrarsız mədəni irsi, həmçinin ayrı-ayrı dövrlərdə başımıza gətirilmiş fəlakətləri dərindən bilir. Məhz qədim və zəngin dövlətçilik tariximizi dərindən bildiyi üçündür ki, Prezident İlham Əliyev tarixçilərə konkret elmi-tədqiqat tapşırıqları verir, onun təşəbbüsü ilə yazılan əsərlərin xarici dillərə tərcümə olunub yayılmasına xüsusi diqqət yetirir.

İstər elmi tədqiqatların aparılması, istərsə də tarixi abidələrin bərpası və qorunması istiqamətində böyük dövlət qayğısı Azərbaycan tarixçisinə tariximizi obyektiv, hərtərəfli araşdırmaq imkanı vermişdir. *Hər zaman dövlətin və Prezidentin qayğısını yaxından hiss edən tarixçilərimizin ən ümdə vəzifəsi də ulu öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyasını və Prezident İlham Əliyevin bu konsepsiyanı daha dolğun və daha mükəmməl şəkildə həyata keçirmək üçün verdiyi tapşırıqları əsas tutaraq Azərbaycanın gerçək tarixini tədqiq və təbliğ etməkdir!*

Dünya təcrübəsindən də məlumdur ki, Elmlər Akademiyası sistemində tarix institutlarının fəaliyyəti dövlət ideologiyasının və milli siyasətin formalaşmasında aparıcı rol oynayır. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu da bu gün müstəqil Azərbaycan Respublikasının aparıcı elm təşkilatlarından biri olmaqla, ölkəmizin tarixinin araşdırılmasına və azərbaycançılıq məfkurəsinin təbliğinə xidmət edir.

Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi, ermənilərin Azərbaycanın tarixi torpaqlarına ərazi iddialarının gücləndiyi, antiazərbaycan təbliğatının genişləndiyi şəraitdə Tarix İnstitutunun rəhbərliyi və kollektivi bu institutun rolunu və əhəmiyyətini yaxşı başa düşür. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin tarix elminin inkişafına, o cümlədən Tarix İnstitutunun fəaliyyətinin genişləndirilməsinə yönəlmiş böyük diqqət və qayğısının nəticəsidir ki, bu gün AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycan tarix elminin başlıca qurumuna, milli ideologiyanın formalaşdığı mərkəzə çevrilmişdir.

Müasir mərhələdə Azərbaycan Milli Elmlər Akademiyasında aparılan geniş islahatlar çərçivəsində Tarix İnstitutunda irimiqyaslı işlər görülmüşdür. Tarix elmi qarşısında duran vəzifələrlə bağlı tərəfimizdən irəli sürülmüş və AMEA-nın Rəyasət Heyətinin 18 dekabr 2004-cü il tarixli 211 saylı qərarı ilə təsdiq edilmiş tarix sahəsində aktual elmi problemlərin tədqiqi, araşdırmaların intensivləşdirilməsi, keyfiyyətinin daha da yüksəldilməsi və sürətinin artırılması mühüm əhəmiyyət kəsb edir və institutun elmi potensialı bu vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir.

İnstitutun strukturunda əhəmiyyətli dəyişikliklər edilmiş, yeni şöbələr və mərkəzlər təşkil olunmuşdur. "Azərbaycanlıların deportasiyası və soyqırımı" mərkəzi və onun tərkibində iki şöbə təşkil olunmuşdur. "Əliyevşünaslıq Elmi-Tədqiqat şöbəsi", "Nəşriyyat işləri şöbəsi", "Tərcümə mərkəzi", "İnformasiya mərkəzi" və digər şöbələr, qurumlar yaradılmışdır. "Azərbaycanın qədim tarixi" şöbəsinin rəhbərliyi möhkəmləndirilmiş, "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində akademik Nərgiz Axundovanın rəhbərliyi altında "Azərbaycanın erkən orta əsrlər tarixi" bölməsi və tarix elmləri doktoru Tofiq Nəcəflinin rəhbərlik etdiyi "Azərbaycanın XII-XVIII əsrlər tarixi" bölməsi fəaliyyətə başlamışdır.

Tarix İnstitutunun fəaliyyəti "Azərbaycan tarixinin ümumi konsepsiyası" elmi istiqaməti üzrə qurulmuşdur. Bu elmi istiqamət beş problemi - Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar, tarixşünaslıq və mənbəşünaslıq, Azərbaycanın siyasi tarixi, Azərbaycanın sosial-iqtisadi tarixi, Azərbaycanın mədəniyyət tarixi məsələlərini əhatə edir. İnstitutda "Naxçıvan", "İrəvan xanlığı", "Qarabağ xanlığı", "Azərbaycan xalqına qarşı soyqırımların və deportasiyaların tarixi", "Azərbaycanın tarixi coğrafiyası", "Azərbaycanın Tarixi Atlası" və digər aktual problemlər ətrafında tədqiqatların sürətləndirilməsinə diqqət artırılmışdır. Təkcə "İtirilmiş torpaqlar"ımızın deyil, həmçinin erməni işğalı altında olan Qarabağ və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasından təcrid olunmuş Naxçıvan bölgəsinin də tarixinin öyrənilməsinə, elmi cəhətdən hərtərəfli şəkildə araşdırılmasına müxtəlif alimlər qrupu və gənc tədqiqatçılar cəlb olunmuşdur.

Məlumdur ki, Vətən tarixinin bir çox problemləri sovet imperiyası dövründə qəsdən saxtalaşdırılmış, təhrif olunmuşdur. Bunun ən mühüm səbəblərindən biri də Azərbaycan tarixi problemlərinin, xüsusilə də sərhəd bölgələrimizin tarixinin öyrənilməməsi olmuşdur. Məsələn, Qarabağ, Naxçıvan, İrəvan, Borçalı, Dərbənd, Şimal-Qərbi Azərbaycan, Cənubi Azərbaycan uzun müddət tarixşünaslığımızın diqqətindən kənarda qalmış, daha doğrusu, unudulmuşdur. Yaranmış boşluqdan istifadə edən antiazərbaycan qüvvələri isə Azərbaycana qarşı yeni-yeni ərazi iddialarını əsaslandırmaq üçün tariximizi saxtalaşdıraraq öz mənafelərinə uyğun formaya salmışlar. Ümumiyyətlə, Azərbaycan tarixşünaslığında uzun müddət unudulmuş və tədqiqatlara cəlb olunmamış "itirilmiş torpaqlar"ın tarixi mövcud boşluqdan istifadə edən qonşular tərəfindən öz istək və maraqlarına uyğun şəkildə "tədqiq" olunmuşdur. Azərbaycanın öz müstəqilliyini itirdiyi son iki yüzillik dönəmdə tariximizlə bağlı irəli sürülən bəzi "konsepsiyalar" elmə zidd və heç bir faktiki əsası olmayan, yanlış müddəalardan ibarət olub, Azərbaycan xalqına, onun əzəli, tarixi torpaqlarına, keçmişinə qərəzli, iddialı münasibət nəticəsində formalaşmışdır. Uzun müddət Azərbaycan tarixinə olan qərəzli münasibətə tutarlı cavab verilmədiyindən, üzdəniraq "tədqiqatçılar" öz iddialarında daha israrlı olmaq üçün açıq şəkildə tarixi faktları təhrif etməkdən belə çəkinməmişlər.

2004-cü ildən başlayaraq AMEA Tarix İnstitutunda Naxçıvan, İrəvan, Göyçə, Zəngəzur, Borçalı mahallarının, Şimal-Qərbi Azərbaycan torpaqlarının, Dərbənd və Samur vadisinin, ən nəhayət, Qarabağın tarixi ilə bağlı hərtərəfli və dərin elmi tədqiqatlara başlanılmışdır. Çağdaş Azərbaycan tarixşünaslığında "itirilmiş torpaqların tarixi" problemi elmi dövriyyəyə daxil edilmiş, bu istiqamətdə ciddi tədqiqatlar aparılmış və obyektiv tarixi gerçəkliyi özündə əks etdirən bir sıra sanballı əsərlər ortaya çıxmış, bir sözlə, "itirilmiş torpaqlar"ın tarixini araşdıran tarixçilər nəsli, böyük bir elmi məktəb formalaşmışdır. Bu istiqamətdə E.M.Lətifovanın "İlisu sultanlığı", Ş.H.Əliyevin "Şimal-Qərbi Azərbaycan: İngiloylar", Z.Ə.Cavadovanın "Şimal-Qərbi Azərbaycan: tarixi-demoqrafik tədqiqat", İ.F.Kazımovun "Naxçıvan bölgəsinin tarixi-demoqrafik tədqiqi", N.Ə.Quliyevin "Naxçıvan xanlığının əhalisi", S.Ə.İbişovun "Quba xanlığının əhalisi", A.Ə.Məmmədovanın "Car-Balakən camaatlığı", S.Rəhimovanın "Dərbənd şəhərinin tarixindən", A.Hacıyevin "Dərbənd XIX-XX əsrin əvvəllərində" adlı dissertasiyaları və monoqrafiyaları bu qəbildən olan əsərlərdəndir.

Vətən tarixi ilə bağlı həllini gözləyən problemlərdən ən birincisi, Dağlıq Qarabağla bağlı həqiqətlərin dünyaya çatdırılmasıdır. Qısa bir zamanda Tarix İnstitutu "Qarabağ. Suallar və faktlar" kitabını və "Qarabağ: real tarix, faktlar, sənədlər" (Y.M.Mahmudov. K.Şükürov) kitabını (Azərbaycan və ingilis dillərində) elmi ictimaiyyətə təqdim etmişdir. Kitabda Azərbaycan tarix elmində ilk dəfə olaraq Qarabağ tarixi ən qədim zamanlardan müasir dövrədək sistemli şəkildə şərh edilmişdir. Qarabağ tarixinin aktual məsələləri ümumazərbaycan tarixi kontekstində tədqiq edilmiş, Qarabağın tarixi Azərbaycan torpağı olması təkzibedilməz elmi faktlarla sübut olunmuşdur. Kitab 2005-ci ildə MDB dövlətlərinin II Beynəlxalq Kitab Sənəti müsabiqəsinin diplomuna layiq görülmüşdür. İnstitutun kollektivi tərəfindən hazırlanmış "Qarabağ: Kürəkçay müqaviləsi - 200" (Bakı, 2005) əsəri isə Rusiya ilə Azərbaycanın iri dövlət qurumlarından biri olan Qarabağ xanlığı arasında imzalanmış Kürəkçay müqaviləsinin 200 illiyinə həsr olunmuşdur. Əsərdə erməni millətçilərinin Kürəkçay uydurması və əzəli Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa olan iddiaları ifşa edilmişdir. Son illərdə Ermənistanın Azərbaycana ərazi iddialarının əsassız olduğunu sübut etmək üçün institutda təkzibedilməz tarixi sənədlər əsasında fundamental "Qarabağ tarixi" (6 dildə) nəşr olunmuşdur.

Tarix İnstitutu XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiyalar tarixi məsələlərinə böyük diqqət yetirir. Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanının işığında və Prezident İlham Əliyevin konkret tapşırıqları əsasında Tarix İnstitutunun əməkdaşları ölkənin, demək olar ki, bütün kütləvi informasiya vasitələrində çıxışlar etmiş, elmi, publisistik məqalələr çap etdirmiş, dövlət əhəmiyyətli yığıncaqlarda və elmi konfranslarda, ölkə və dünya miqyaslı toplantılarda məruzələr etmişlər. İnstitutun bu istiqamətdə elmi fəaliyyətində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağda erməni millətçilərinin xalqımıza qarşı yeritdikləri soyqırımı siyasəti, deportasiya, köçkünlük, erməni terroru: sui-qəsd, girovgötürmə, vandalizm, Heydər Əliyevin işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi uğrunda mübarizəsi məsələləri öz əksini tapmışdır. "Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi" və "Qarabağ" şöbələrində əsas diqqət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin araşdırılmasına, Azərbaycanın ayrı-ayrı bölgələri üzrə soyqırımları və deportasiyalar tarixinə yönəldilmişdir.

İnstitutun baş planına "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli məsələsi", "Azərbaycanlıların deportasiyası və soyqırımı tarixi" mövzularının tədqiqi də daxil edilmişdir. Son 14 ildə bu istiqamətdə böyük iş görülmüş, bir sıra qiymətli kitab və monoqrafiyalar, sənədlər toplusu nəşr edilmişdir. Y.M.Mahmudovun "Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920-х годах", İ.Məmmədovun "Tariximiz, torpağımız, taleyimiz", "İrəvan dəftəri", "Erməni kilsəsi və türk-Azərbaycan torpaqlarını dolaşmaqda olan "Böyük Ermənistan" kabusu", L.L.Nəsibzadənin "Vətən haqqında düşüncələr", S.A.Piriyevanın "Ahısqa türkləri Azərbaycanda", Ə.C.Qurbanovun "Azərbaycan türklərinin Ermənistandan deportasiyası (1947-1953)", M.Süleymanovun "Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən", N.Məmmədovun "Dağlıq Qarabağ gerçəklikləri: Soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik)", "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri əməllər barədə tarixi faktlar", İ.Niftəliyevin "Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920)", G.Nəcəflinin "1918-1920-ci illərdə Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı", yenə onun "1917-1918-ci illərdə Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı", N.Gözəlovanın "Azərbaycan türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində", Nazim Mustafanın "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı", V.Abışovun "Bakıda 1918-ci il mart soyqırımı", yenə onun "Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı" və "Quba qəzasında türk-müsəlman soyqırımı", N.Məmmədzadənin "Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920)", K.İsmayılovun "Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920)", Z.Əliyeva və İ.Əliyevanın "Soyqırımı, terrorizm, deportasiya" adlı kitabları bu istiqamətdə aparılan araşdırmaların elmi nəticələridir. İnstitut əməkdaşları bu mövzuda məruzələrlə müxtəlif ölkələrdə beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda iştirak etmişlər. Eyni zamanda, Tarix İnstitutunun birbaşa təşəbbüsü və təşkilatçılığı ilə "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları" mövzusunda respublikanın müxtəlif şəhərlərində 5 beynəlxalq elmi konfrans keçirilmişdir.

Tarix İnstitutu son illərdə Naxçıvan, bu diyarın tarixi, abidələri və görkəmli yetirmələri ilə daim maraqlanmış, tədqiqinə ciddi diqqət yetirmişdir. İnstitut əməkdaşları dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş, onun bölgələri, arxeoloji, tarixi və memarlıq abidələri ilə yaxından tanış olmuş, onlar haqqında mötəbər tədqiqatçı sözü demişlər. "Naxçıvan: tarixi və abidələri" adlı əsərdə (Y.M.Mahmudov, K.Şükürov) Naxçıvan diyarının keçdiyi tarixi inkişaf yolu ayrı-ayrı dövrlər üzrə nəzərdən keçirilir. Kitaba əlavə olunmuş illüstrasiya materialları onun əhəmiyyətini artırır, Naxçıvanın tarixi və abidələri haqqında dolğun təsəvvür yaradır.

2007-ci ildə institutun elmi şurası ulu öndər Heydər Əliyevin ömür yoluna fundamental elmi araşdırmaların həsr olunması barədə qərar qəbul etmişdir. Dahi şəxsiyyətin özündən sonrakı nəsillərə yadigar qoyub getdiyi zəngin irsini tədqiq etmək məqsədilə institutun daxili imkanları hesabına 2009-cu ilin mayında "Heydər Əliyev Elmi Tədqiqat şöbəsi" yaradılmış, 2010-cu ilin sonunda AMEA Rəyasət Heyətinin qərarı ilə təsdiq olunmuş yeni struktura müvafiq olaraq, bu şöbə "Əliyevşünaslıq" şöbəsi adlandırılmışdır. Heydər Əliyev irsinin öyrənilməsi istiqamətində aparılan araşdırmalar içərisində "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" (2002), "Azərbaycan: qısa dövlətçilik tarixi" (2005), "Heydər Əliyev ideyalarının zəfər yürüşü" (2011) monoqrafiyalarını xüsusi qeyd etməliyik. Bu əsərlərdə Heydər Əliyevin tarix elmi qarşısında xidmətləri, tarix elminin inkişaf istiqamətləri və elmi nailiyyətlər, tarixin təhrif edilmədən tədqiqi, tədrisi və təbliği məsələləri barədə metodoloji göstərişləri, həmçinin apardığı ümumiləşdirmələri əks olunmuşdur. Bundan əlavə, 2007-ci ildən "Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar" problemi üzrə ikicildlik sistemləşdirilmiş, "Heydər Əliyev" adlı tədqiqat işi nəşr edilmişdir. "Heydər Əliyev" (2 cildlik) ümumiləşdirilmiş fundamental akademik araşdırmada ulu öndərin irsi arxiv və statistik, habelə mətbuat orqanlarının materialları və mövcud tarixi ədəbiyyat üzrə təhlil edilmişdir. Kitabda ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni inkişafının əsas istiqamətləri araşdırılmış, bütövlükdə Azərbaycanın tərəqqisi və inkişafı üçün həyata keçirdiyi strategiya konkret faktlarla elmi cəhətdən əsaslandırılmışdır. Tarix İnstitutunun çap etdirdiyi "Heydər Əliyev" ikicildliyi nəşri ölkə miqyasında elmi-tarixi hadisə sayılmağa layiqdir.

*Ardı 4-cü səh.*



# Prezident İlham Əliyev və Azərbaycan tarixi

## *Ölkə rəhbərinin müasir Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan tarixinə və bu tarixin doğru-düzgün araşdırılmasına gündəlik qayğısıdır*

Əvvəli 3-cü səh.

AMEA Rəyasət Heyəti tərəfindən 2013-cü il mayın 2-də “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda keçirilən beynəlxalq elmi konfransda Tarix İnstitutunun nəşr etdiyi “Heydər Əliyev: Azərbaycan elminin keşiyində” adlı ikicildlik sənədlər toplusu təşkil olunan sərgidə nümayiş etdirilmişdir. Bu nəşrlərdən əlavə, Tarix İnstitutunun rəhbərliyinin iştirakı ilə Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Dahi Azərbaycanlı” adlı sənədli film çəkilmişdir. Ssenari müəllifi və aparıcısı Yaqub Mahmudov olan bu film Azərbaycan Televiziyasının “Azərbaycan Telefilm” yaradıcılıq birliyində istehsal olunmuşdur. “Dahi Azərbaycanlı” sənədli filmində Heydər Əliyevin ömür yolunu əks etdirən yeni materiallar, xüsusilə ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünü, o cümlədən gənclik illərini əks etdirən maraqlı faktlar daxil edilmişdir.

Tarix İnstitutunda 2007-ci ildə Azərbaycanda ilk dəfə milli dövlətçilik tarixini xronoloji ardıcıllıqla əhatə edən “Azərbaycanın Tarixi Atlası” nəşr olunmuşdur. Tarix İnstitutunun əməkdaşları tərəfindən milli tariximizin bütün dövrləri üzrə tərtib olunan xəritələr atlasla bərabər, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə çapa hazırlanan Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildinin “Tarix” bölməsinə də daxil edilməli idi. 55 xəritəni əhatə edən “Azərbaycanın Tarixi Atlası” və Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildinin “Tarix” bölməsində bütün dövrləri əks etdirən xəritələr çap edildi. Hər iki nəşr təkcə ölkəmizdə deyil, o cümlədən xarici ölkələrdə də böyük əks-səda doğurdu. Azərbaycanın tarixi ərazilərinin mənbələr əsasında, xronoloji ardıcıllığı, onun xüsusilə də XIX əsrin birinci yarısında çar Rusiyası və İran arasında bölüşdürülməsi, ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsi, 1918-1929-cu illərdə 29,8 min kv km ərazinin ermənilərə verilməsi nəticəsində qondarma “Ermənistan Respublikası”nın yaradılması, azərbaycanlıların öz tarixi və etnik torpaqlarından deportasiyası, etnik təmizləmə və soyqırımı proseslərinin xəritələrdə öz əksini tapması Ermənistanda çox böyük narahatlıqla qarşılandı. 2007-ci il sentyabrın 25-də Tarix İnstitutu Beynəlxalq Mətbuat Mərkəzində “Azərbaycanın Tarixi Atlası”nın təqdimatını keçirmişdir.

Tarix İnstitutunun nəşriyyat işlərinin əsasını, heç şübhəsiz, 30 ildən sonra nəşri bərpa edilən “AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əsərləri” təşkil edir. “Elmi əsərlər”in nəşri 1969-cu ildə dayandırılmışdı, onun çapının bərpası haqqında institutun elmi şurasının 2002-ci ildə qəbul etdiyi qərara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər bu prosesi 2007-ci ilədək ləngitdi. İldə dörd dəfə çap olunması nəzərdə tutulan “Elmi əsərlər”in indiyədək (2007-2017-ci illər) 60-dan çox sayı nəşr olunmuşdur. İnstitutun “Elmi əsərlər”inə təqdim olunan məqalələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara uyğun şəkildə tərtib edilir, jurnalın redaksiya heyətində müzakirə olunduqdan sonra çapa məsləhət görülür.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası, dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Tarix İnstitutunun gördüyü vacib işlərdən biri də “26 Bakı komissarları” adlı cinayətkar qrupun 1918-ci ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımının gerçək tərəflərinin üzə çıxarılmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Bakı şəhərinin mərkəzindəki Sahil bağında yenidənqurma və abadlıq işlərinin aparılması ilə əlaqədar, burada 2008-ci ilin sonu - 2009-cu ilin əvvəlində 1920-ci il sentyabrın 10-da keçmiş ÜMİK Rəyasət Heyətinin və Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin qərarı ilə dəfn edilmiş, 1918-ci ildə Azərbaycan xalqına qarşı soyqırımı cinayətlərinin təşkilatçıları olan “26-lar”ın məzarlarının açılması və şəhər məzarlıqlarından birinə köçürülməsi ilə bağlı yaradılmış dövlət komissiyasının tərkibinə bu yazının müəllifi də daxil edilmişdir. İnstitutun elmi şurasının 2009-cu ildə keçirilmiş iclaslarından biri Bakı şəhərinin “Sahil bağında aşkar olunmuş “26 Bakı komissarı” adlandırılan şəxslərə aid cəsədlərin ilkin ekspertizasının nəticələri”nə həsr edilmişdir. İclasda qeyd edilmişdir ki, “Qəbirlər AMEA-nın alimləri və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin baş direktoru, tibb elmləri doktoru, professor Şakir Musayev başda olmaqla, aparıcı ekspertlərin iştirakı ilə açılmışdır. 2009-cu il yanvarın 24-26-da Sahil bağında aparılan araşdırmalar zamanı aşkar olunmuş qəbirlərdəki skelet sümüklərinin məhkəmə-tibbi və tibbi-kriminalistik tədqiqatı nəticəsində tapılan sümüklərin 26 nəfərə deyil, 23 nəfərə məxsus olması artıq onu göstərir ki, bu məsələdə saxtalaşdırma faktı var. 23 nəfərin iki növ silahdan açılan atəş nəticəsində öldürüldüyü sübut edilmişdir. Onların hamısının dizdən yuxarı və kəllə nahiyəsinə atəş açılıb. Bu cəsədlərin 26 Bakı komissarlarına aid olması heç bir şübhə doğurmur. 23 nəfər orada dəfn olunub, 3 nəfərin cəsədi isə yoxdur. Bununla sübut olunur ki, həmin üç nəfər güllələnənlər arasında olmayıb. Skelet sümüklərinin məxsus olduğu şəxslərin yaş həddi 20-50 arasındadır. Çatışmayan 3 cəsədə gəldikdə isə, “26-lar”ın siyahısı ilə tutuşdurulduqda, məlum olur ki, bunlardan 2-si 40-49 yaş həddinə, 1-si isə 30-39 yaş həddinə aid olan şəxslərdir. “26-lar”ın siyahısından məlum olur ki, onların içərisində yaşı 39-dan yuxarı olan 3 nəfər vardır: Şaumyan (40 yaş), Əzizbəyov (42 yaş), Əmiryan (45 yaş). Ekspertiza araşdırmaları başa çatdırıldıqdan sonra cəsədlərin qalıqları humanizm prinsipləri əsas tutularaq, 2009-cu il yanvarın 26-da müsəlman, xristian və yəhudi din xadimlərinin iştirakı ilə və müvafiq dini ayinlər icra olunmaqla şəhər qəbiristanlığında dəfn edilmişdir ...”

Hamazasp, Lalayan, Avetisov, Əmiryan, Avakyan kimi erməni cəlladların quldurluq əməlləri, onların sonrakı taleyi, üzdə bolşevik, əslində isə daşnak olan S.Şaumyanın daşnak cəlladı Andronikla 1917-1918-ci illərdəki əlaqələri ciddi tədqiqatlara cəlb olunmalıdır. S.Şaumyanın 1919-cu ilin martında hərbi əsir olması barədə məlumat verən, Bakı Sovetinin arxivində saxlanılan və 1934-cü ildə Ermənistan hökumətinin Türkmənistan SSR-in Krasnovodsk şəhərində “26-lar”a abidə qoyulması üçün 150 min manat ayırması barədə sənədlər də Tarix İnstitutunun Elmi şurasında təhlil edlmişdir. Ortaya çıxan problemin siyasi və elmi əhəmiyyətini düzgün qiymətləndirən institut rəhbərliyinin təşəbbüsü ilə məsələ ilə bağlı yaranmış çoxsaylı suallara cavab tapmaq üçün Azərbaycan Respublikasının, o cümlədən xarici ölkələrin dövlət arxivlərində araşdırmalar aparacaq işçi qrup yaradılmışdır. Keçən bu müddət ərzində işçi qrupu tərəfindən ölkənin dövlət arxivlərində geniş araşdırmalar aparılmış və toplanılmış materialların sənədlər toplusu şəklində çap olunması qərara alınmışdır. Bu araşdırmaların ilkin nəticələri öz əksini “Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı” adlı kitabda tapmışdır. Sübut olunmuşdur ki, S.Şaumyan 26-lar sırasında güllələnməmiş və “Daşnaksütyun” partiyası Bakı Komitəsinin üzvü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il may ayının 4-də “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya”nı və “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”nı təsdiq etmiş, 2009-cu il oktyabr ayının 21-də isə “Elmin İnkişaf Fondu yaradılması haqqında” sərəncam imzalamışdır. Bu sərəncamlar Tarix İnstitutu və onun əməkdaşları tərəfindən böyük razılıqla qarşılanmışdır. Bu sərəncamlardan çıxış edərək Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev humanitar və ictimai elmlərlə bağlı məruzəsi (8 dekabr 2009-cu il) və “İctimai və humanitar elmlər: zaman kontekstində baxış” məqaləsi ilə bu elm sahələrinin vəzifələrini müəyyənləşdirmiş və gələcək inkişafının yollarını göstərmişdir. Məruzədə Milli Elmlər Akademiyasının Tarix İnstitutunda son illər ərzində rəğbətlə qarşılanmış bir sıra fundamental əsərlərin hazırlanıb nəşr olunduğu xüsusilə qeyd edilmişdir. İnstitutda həmçinin dəyərli tarixi sənədlərin və arxiv materiallarının çapı və şərhi sahəsində mühüm işlərin həyata keçirilməsi və Azərbaycan tarixinə həsr olunmuş fundamental monoqrafiyaların yazılması tövsiyə olunmuşdur. İnstitut bu tövsiyələri nəzərə alaraq, Azərbaycanın itirilmiş ərazilərinin tarixini dərindən araşdırmaq üçün mühüm işlər görmüş, Azərbaycan tarixinin bir çox aktual və həllini gözləyən problemlərinin müasir dövrün tələbləri ruhunda araşdırılıb xalqa çatdırılması üçün elmi-tədqiqat fəaliyyətində əsaslı dəyişikliklər etmişdir.

Azərbaycan tarix elmi üçün böyük uğur sayılan hadisələrdən biri də - “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” (7 dildə) adlı fundamental əsərin nəşr olunmasıdır. Cənubi Qafqazın tarixində mühüm rol oynamış Azərbaycan dövlətlərindən biri - İrəvan xanlığının (1747-1828) tarixinə həsr olunmuş fundamental monoqrafiya - “İrəvan xanlığı” adlı əsər təkcə Azərbaycan tarix elmində deyil, dünya tarixşünaslığı üçün nəhəng bir hadisə sayılmalıdır. AMEA Tarix İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi olan bu kitabda Nadir şah Əfşarın yaratdığı imperiyanın süqutundan sonra meydana çıxmış İrəvan xanlığının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu sübuta yetirilir. Əsərdə müstəqil Azərbaycan dövlətlərindən biri olan İrəvan xanlığı və həmin xanlığın yerləşdiyi Azərbaycan torpaqları təkzibolunmaz tarixi mənbələr əsasında hərtərəfli tədqiqata cəlb edilmişdir. Monoqrafiyada İrəvan xanlığı əhalisinin etnik tərkibi araşdırılmış və erməni müəlliflərinin xanlığın xristian əhalisi barədə uydurma fikirləri - əhalinin əksəriyyətinin guya ermənilərdən ibarət olması ideyası ifşa olunmuşdur. Bundan əlavə, İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri və inzibati bölgüsü, daxili idarəçilik sistemi və xarici siyasəti, İrəvan xanlığının XIX əsrin əvvəllərində yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsi, böyük çətinliklə Rusiya imperiyası tərəfindən işğalı, ən əsası isə işğaldan sonra bu əraziyə İrandan və Osmanlı imperiyasından ermənilərin kütləvi şəkildə köçürülməsi geniş şəkildə öz əksini tapmışdır. Kitabın nəşrində əsas məqsəd Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bir dövlət - İrəvan xanlığı haqqında elmi ədəbiyyatda indiyə qədər mövcud olan saxta, uydurma fikirləri ifşa etmək, real tarixi ictimaiyyətə çatdırmaqdır. Bu fundamental əsər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xətti ilə xaricdə yayılmışdır. Onu da qeyd etmək lazımdır ki, “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” kitabı böyük rəğbətlə qarşılanmış, “Humay” mükafatına layiq görülmüşdür.

AMEA Tarix İnstitutunun son 14 ildə əldə etdiyi bu uğurlar ulu öndər Heydər Əliyevin Tariximizin Dirçəliş Konsepsiyası və İlham Əliyevin konkret tapşırıq və sərəncamları əsasında əldə edilmişdir. Bu uğurlar 2011-ci il aprelin 26-da keçirilən AMEA-nın illik ümumi yığıncağında da ifadəsini tapmışdır. Yığıncaqda Prezident İlham Əliyev özünün geniş nitqində tarixçilərin işlərinə yüksək qiymət verərək qeyd etmişdir ki, *“Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək, qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır… Nəinki ölkə daxilində, eyni zamanda, xaricdə də bunu bilməlidirlər. Ona görə bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır… Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir… Bu, bizim torpaqlarımızdır. Elmi araşdırmalar və elmi əsərlər,kitablar çox vacibdir”.* AMEA Tarix İnstitutu alimlərinin fədakar əməyini xüsusi olaraq qeyd edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həm də Azərbaycan tarixinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində onların gördükləri işlərə çox böyük qiymət vermişdir.

2011-ci il dekabrın 22-də AMEA Tarix İnstitutunun Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti ilə birgə hazırladığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş “Tariximizin keşiyində” adlı sənədli televiziya filminin təqdimatı keçirilmişdir. 2014-cü ildə isə Yaqub Mahmudovun “İlham Əliyev və Azərbaycan tarix elmi” adlı kitabı çap edilmişdir. Monoqrafiyada Prezident İlham Əliyevin tövsiyə, çağırış və tapşırıqlarına əsasən müstəqil Azərbaycan Respublikasında tarix elminin konseptual problemlərinə, bu problemlərin araşdırılması istiqamətində aparılan dövlət siyasətinə və strategiyasına həsr olunmuşdur. Kitabda dövlət başçısının Azərbaycan tarix elminin inkişafına yönəlmiş məqsədyönlü siyasəti tədqiq edilmiş, Azərbaycan tarixinin obyektiv araşdırılması işinə ölkə rəhbərinin xüsusi qayğı göstərməsi nəticəsində bu mühüm elm sahəsinin Azərbaycan Respublikasının İnkişaf Strategiyasının mühüm tərkib hissəsi olduğu işıqlandırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci ildə də elm sahəsinə, alimlərə göstərdiyi diqqət və qayğını artırmış, Azərbaycan elminin inkişafı istiqamətində bir sıra qərarlar qəbul etmişdir. Belə ki, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında 2012-ci il 26 aprel tarixli sərəncam imzalamışdır.

2012-ci il AMEA Tarix İnstitutu üçün bütövlükdə əlamətdar və uğurlu il olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 25 may tarixli 2238 nömrəli sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun 13 əməkdaşına Azərbaycan Respublikasının Dövlət mükafatı verilmişdir. Prezidentin tarixçi alimlərin fəaliyyətinə verdiyi belə yüksək qiymət Tarix İnstitutunun bütün kollektivi üçün də ən əlamətdar hadisə kimi dəyərləndirilə bilər.

Azərbaycan Respublikasının Prezidenti “Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü” haqqında 2012-ci il 9 aprel tarixli 2130 N-li sərəncam imzalamışdır. Sərəncamın yerinə yetirilməsi ilə bağlı AMEA Tarix İnstitutu 2012-ci il mayın 4-də nəzərdə tutulan bir sıra tədbirlər keçirmişdir. Belə ki, “Şuşa-Pənahabad” (Bakı, 2012) adlı monoqrafiya çapdan çıxmışdır. Monoqrafiyada Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biri olan Şuşa şəhərinin şanlı tarixi keçmişi, unikal memarlıq abidələri, görkəmli şəxsiyyətləri haqqında məlumatla yanaşı, Pənahəli xan Cavanşirin əsasını qoyduğu bu şəhər - qalanın tarixi tədqiq olunmuşdur. Erməni təcavüzkarları XIX yüzilliyin əvvəllərində köçüb gəldikləri Azərbaycan torpaqlarında - İrəvan xanlığının ərazisində, Zəngəzurda və başqa yerlərdə olduğu kimi, Qarabağdakı, o cümlədən Şuşadakı qədim Azərbaycan abidələrini də məhv etdilər. Kitabda şəhərin erməni vandallarının işğalından əvvəlki və işğaldan sonrakı mənzərəsini əks etdirən fotosənədlər öz əksini tapmışdır. İnstitut, eyni zamanda, Azərbaycan Televiziyası ilə birlikdə “Şuşa-Pənahabad” filmini də yaratmışdır.

2014-cü il iyul ayının 6-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan diplomatları qarşısında çıxışı zamanı demişdir: *“Bilirsiniz ki, alimlərimiz mənim təşəbbüsümlə İrəvan xanlığı haqqında böyük elmi əsər yaratmışlar. Bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox faktoloji və elmi məsələləri əks etdirir. Hesab edirəm ki, daha geniş auditoriyaya çatdırmaq üçün kiçik həcmli broşürlər də buraxılmalıdır. Hesab edirəm ki, Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Mədəniyyət və Turizm Nazirliyi birlikdə belə broşürlər hazırlamalıdırlar ki, müxtəlif dillərdə nəşr edilsin və xarici ictimaiyyətə çatdırılsın. O cümlədən, İrəvanın 1918-ci ildə Ermənistana verilməsi faktları da geniş auditoriyaya məlum deyildi”.*

Dövlət başçısının həmin çağırışına cavab olaraq Tarix İnstitutu 2016-cı ildə aşağıdakı broşürləri nəşr etdirmişdir: N.Mustafa. “İrəvan xanlığı. Erməni vandallarının yox etdiyi Xan sarayı”; N.Mustafa. “İrəvan xanlığı. Erməni vandallarının yox etdiyi İrəvan məscidləri”; G.C.Nəcəfli. “İrəvan xanlığı. İrəvan qalası-qəhrəmanlıq qalası”; G.C.Nəcəfli. “Çüxürsəd hakimləri və İrəvan xanları”; N.Mustafa. “Ереванское ханство. Ханский дворец, разрушенный армянскими вандалами”; Yenə onun: “Ереванское ханство. Мечети Иревана, разрушенные армянскими вандалами”; G.Nəcəfli. “Ереванское ханство. Ереванская крепость - символ героизма”; Yenə onun: “Ереванское ханство. Чухурседские правители и Ереванские ханы”; N.Mustafa. “The Iravan khanate. Khans palase wiped out by Armenian vandals”; Yenə onun: “The Iravan khanate. Mosque of Iravan obliterated by Armenian vandals”; G.J.Najafli. “The Iravan khanate. Iravan fortress - the fortress of heroism; G.J.Najafli. The Iravan khanate. Rulers of Chukhursad and khans of Iravan”; Yenə onun. “İrəvan xanlığının paytaxtı - İrəvan şəhəri”; Yenə onun: “Столица Ереванского ханства город Ереван”; Yenə onun: “Erməni vandallarının yox etdiyi İrəvan qalaları”; Yenə onun: “Ереванские крепости, разрушенные армянскими вандалами”; Yenə onun: “İrəvan xanlığının mahalları”; Yenə onun: “Магалы Ереванского ханства”; İ.Məmmədova. “İrəvan xanlığının əhalisi”; Yenə onun: “Население Ереванского ханства”.

Keçən 14 il ərzində AMEA Tarix İnstitutu geniş miqyasda arxiv sənədləri topluları nəşr etdirmişdir. Onların arasında “Azərbaycan tarixi arxiv sənədlərində (1920, may-1922, mart)”; “Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri)”; “Azərbaycan tarixi arxiv sənədlərində (XIX əsrin sonu-XX əsrin əvvəlləri)”; “Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrin əvvəlləri)” xüsusi qeyd oluna bilər.

Son illər Tarix İnstitutu dünya ölkələrinin bir çox elmi müəssisələri ilə elmi əlaqələr yaratmışdır. AMEA Tarix İnstitutunun Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil, Tarix Yüksək Kurumu, Atatürk Araşdırma Mərkəzi, Türk Tarix Qurumu, Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi, Rusiya Federasiyası Tatarıstan Respublikası EA Tarix İnstitutu, Rusiya EA Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu, RF Çeçenistan Elmlər Akademiyası Tarix İnstitutu, RF Adıgey Respublikası T.M.Keraşev adına Humanitar Tədqiqatlar İnstitutu, Adıgey Respublikası Maykop Dövlət Texnoloji Universiteti, İnquşetiya Respublikası Çaxa Axriyev adına Humanitar Elmi Tədqiqat İnstitutu, Rusiya EA-nın Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyi, Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi Tədqiqat İnstitutları, Bolqarıstan, Macarıstan və Polşa respublikalarının universitet və akademiyaları, Çin İctimai Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutu ilə elmi əməkdaşlığı daha da genişləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci ilin 9 noyabr tarixində AMEA-nın 70 illik yubileyi ilə bağlı tədbirdəki çıxışı zamanı Tarix İnstitutu tərəfindən nəşr edilən fundamental elmi əsərləri yüksək qiymətləndirərək bildirmişdir: *“Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. “Erməni alimləri” xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir, hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır”.*

Azərbaycan Respublikasının Prezidenti AMEA-nın 70 illik yubiley tədbirindəki çıxışı zamanı Tarix İnstitutu qarşısında növbəti vəzifələr qoymuşdur: *“Hesab edirəm, vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər.”* “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında” Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixli sərəncamına uyğun olaraq Tarix İnstitutunda aşağıdakı fundamental monoqrafiyalar çap olunmuşdur: Azərbaycan Respublikasının tarixi (1991-2003), c.1. Bakı, 2016; Azərbaycan Respublikasının tarixi (2003-2016), c.2. Bakı, 2016; Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-biblioqrafik araşdırma. Bakı, 2016; Azərbaycan Respublikasının tarixi (1991-2016). Foto-kitab. Bakı, 2016; Azərbaycan Respublikasının tarixi (1991-2016). Tarixi-xronoloji araşdırma. Bakı, 2016.

Eyni zamanda, Tarix İnstitutu ulu öndər Heydər Əliyevin vəsiyyəti və Prezident İlham Əliyevin tapşırığı ilə 2004-cü ildə “Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası”nı çap etdirmişdir. Kitabın 2014-cü ildə işıq üzü görən ikinci nəşri, hesab edirik ki, Azərbaycan Xalq Cümhuriyyətinin bu il qeyd edəcəyimiz 100 illiyinə ən böyük töhfələrdən biri olacaqdır.

Bu bir həqiqətdir ki, hər bir xalq, onun milli-mənəvi varlığı doğma elinə, torpağına bağlı olan tarixi şəxsiyyətlərin fəaliyyəti və mübarizəsi sayəsində yaşayır, qeyri-millətlər içərisində əriyib yox olmaq təhlükəsindən qurtulur. Məhz qüdrətli şəxsiyyətlər sayəsində xalq həm də tarixin yaddaşında qalır. Qədim dövlətçilik mədəniyyətinə malik olan Azərbaycan xalqı üçün böyük qürur mənbəyidir ki, o, dünyaya olduqca görkəmli tarixi şəxsiyyətlər bəxş etmişdir. Çox təəssüf ki, xaricdə və hətta ölkəmizin daxilində xalqın yaddaşında yüz illər ərzində özünə layiqli yer tutmuş görkəmli dövlət xadimlərinə və tarixi şəxsiyyətlərə, o cümlədən Cavanşir, Babək, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Şah Abbas Səfəvi, Nadir şah Əfşar və digərlərinə qarşı saxta, elmdən uzaq, sağlam məntiqdən kənar fikirlərlə, qarayaxmalarla çıxış edənlər tapılır. Bu gün təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə qarşı informasiya müharibəsində fəal iştirak edən *Tarix İnstitutu Prezident İlham Əliyevin çağırışları, tapşırıq və tövsiyələri ilə mükəmməl elmi araşdırmalar ortaya qoymaqla yanaşı, həm də yeniyetmələr arasında “Tarixi şəxsiyyətlərimizə sahib çıxaq” layihəsini həyata keçirir.* Bu layihə çərçivəsində Bakı şəhərinin müxtəlif orta məktəbləri, təhsil kompleksləri və liseylərində, Şəki şəhərində “Heydər Əliyev”, “Şah İsmayıl Səfəvi”, “Şah Təhmasib Səfəvi”, “Şah Abbas Səfəvi”,”Azərbaycanın böyük dövlət xadimi Həsən Padşah”, “Vətən qeyrətli qadın hökmdarımız - Tomiris”, “Nadir şah Əfşar”, “Ağa Məhəmməd şah Qacar, “Hacı Çələbi xan” mövzularında elmi-praktik konfranslar keçirilmişdir. Orta məktəb şagirdlərinin çox fəal iştirak etdikləri bu konfransların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu əvəzsizdir.

Təbii ki, Azərbaycan tarix elmi qarşısında duran fundamental elmi problemlər çoxdur və onların həlli müəyyən vaxt tələb edir. Bu problemlər içərisində milli tariximizin dövrləşdirilməsi, Azərbaycan ərazisində yayılmış müxtəlif dinlərin, ilk növbədə, islam dininin, Azərbaycanın beynəlxalq əlaqələrinin tədqiqi, Azərbaycanın tarixi coğrafiyasının yazılması və tarixi xəritələrin tərtibi, Qərbi Azərbaycan, o cümlədən İrəvan xanlığının, Cənubi Azərbaycan, Borçalı mahalı və Naxçıvan diyarının tarixinin, XVIII-XX əsrlərdə azərbaycanlılara qarşı deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti, qədim zamanlardan bu günə qədər Qarabağın və Azərbaycanın şimal-qərb bölgələrinin tarixinin araşdırılması, orta məktəblər üçün yüksək səviyyəli tarix dərsliklərinin yazılması tarix elmi qarşısında duran ən aktual məsələlərdəndir.

Bütün bunlar ötən dövr ərzində ölkəmizdə yüksək səviyyəli akademik bir məktəbin yarandığını təsdiq edir. Respublikamızın ən tanınmış və məşhur tarixçiləri, arxeoloqları, etnoqrafları, şərqşünasları məhz Tarix İnstitutunda çalışmışlar. Onlar Azərbaycan tarixinə dair elmi-tədqiqat işləri aparmaqla yanaşı, ümumən, qafqazşünaslıq, şərqşünaslıq və dünya xalqlarının elmi və mədəni tərəqqisi məsələlərini əhatə edən bir sıra mühüm problemlərin araşdırılmasında Azərbaycan elminin aparıcı qüvvələri olmuşlar. Azərbaycan alimlərinin əməyi nəticəsində sovet imperiyası dövründə xalqımıza qarşı ərazi iddiaları ilə çıxış edən erməni millətçilərinin təcavüzkar niyyətləri ifşa edilmişdir. Bu nöqteyi-nəzərdən hazırda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, işğal olunmuş və hələ sovet hakimiyyəti dövründə zorla ermənilərə verilmiş torpaqlarımızın geri qaytarılması üçün tarixçi alimlərin qarşısında çox böyük vəzifələr durur.

Tarix elmi çox böyük gücə malik bir silahdır, bu silahdan xalqımızın əbədi azadlığının, tarixi ərazi bütövlüyünün və dövlət müstəqilliyinin təmin edilməsi üçün maksimum dərəcədə istifadə olunmalıdır. AMEA Tarix İnstitutu bu vəzifələrin yerinə yetirilməsi yolunda xüsusi yeri olan bir elmi təşkilatdır. Tarix İnstitutunda aparılan geniş tədqiqat işləri Azərbaycan xalqının milli oyanışında, xalqımızın azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşməsində və milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsində mühüm rol oynayır. Bu gün AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu Azərbaycanda tarix elminin başlıca qurumuna, milli ideologiyanın formalaşdığı mərkəzlərdən birinə çevrilmişdir. Onu da xüsusi qeyd etmək lazımdır ki, tarix elmi sahəsində görülən bütün bu böyük işlər ölkə Prezidenti İlham Əliyevin göstərişləri, çağırış və tövsiyələri əsasında həyata keçirilir. XXI əsrlə dünyada yeni era başlamışdır. Hər bir elm sahəsində olduğu kimi, tarix elmi sahəsində də yeniləşmə prosesinin reallığa çevriləcəyi şəksizdir. Şübhə yoxdur ki, bütün zamanlarda sınaqlardan uğurla çıxan Azərbaycan tarix elmi yeni eranın sınaqlarından da zəfərlə çıxacaqdır.

*Azərbaycan tarixçisi milli tariximizin inkişafına göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə minnətdardır və əmindir ki, Azərbaycanın Qurucu Prezidenti ölkəmizin tarixinə, həm də Qarabağı erməni təcavüzkarlarından azad edən Xilaskar Prezident kimi daxil olacaq!*

**Yaqub MAHMUDOV,**
***Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik***

# Əmlak çıxarışları bir günə veriləcək

Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı sahəsində mühüm yenilik baş verib. Əmlak çıxarışlarının verilmə müddəti azaldılıb. Artıq vətəndaşlar əmlakları üzərində mülkiyyət hüququnu təsdiqləyən çıxarışı bir iş günü müddətində ala biləcəklər.

Bununla bağlı Nazirlər Kabineti “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”na dəyişikliklər edib. Qaydaya “Ərizənin sürətləndirilməklə icra edilməsi” başlıqlı yeni hissə əlavə olunub. Dəyişikliyə əsasən, vətəndaşların təqdim etdikləri ərizə onların istəyi əsasında daha sürətlə icra ediləcək. Nəticədə vətəndaşlar daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatını təsdiqləyən çıxarışları 1, 3 və 7 iş günü müddətində ala biləcəklər. Qeydiyyat prosesi zamanı mərzçəkmə və inventarlaşdırma işlərinin aparılmasına ehtiyac yaranarsa, ərizələr 2, 5 və 10 iş günü müddətində icra ediləcək. İpotekanın dövlət qeydiyyatı ilə bağlı ərizələr isə 1 və 2 iş günü müddətində icra olunacaq. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına dair ərizənin sürətləndirilməklə icrası zamanı Əmlak Məsələləri Dövlət Komitəsinin göstərdiyi xidmətlərə görə xidmət haqlarının tarifləri Tarif Şurası tərəfindən müəyyən edilən əmsallarla hesablanacaq.

Əmlakın qeydiyyatının sürətləndirilməsində məqsəd vətəndaşlara daha operativ xidmət göstərilməsi, xidmətlərdə məmnunluğun yüksəldilməsi, eyni zamanda çevikliyin və rahatlığın artırılmasıdır. Qaydalarda edilən dəyişikliklər və onların icrası daşınmaz əmlakın qeydiyyatı sahəsində prosedurların sadələşdirilməsi və burada tətbiq edilən texnoloji yeniliklər sayəsində mümkün olub.

Əmlak çıxarışlarının daha sürətli verilməsi müasir həyatımızın əsas çağırışlarından olan sürətli proseslərə və biznes əməliyyatlarına tələbatın ödənilməsinə imkan verəcək. Belə ki, bu yenilik daşınmaz əmlakın qeydiyyatı sahəsində xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artmasına, daha çox insanın rahatlıqla mülkiyyət üzərində hüquq sahibi olmasına şərait yaradır. Bu isə daşınmaz əmlak bazarının aktivləşməsinə, iqtisadi əməliyyatların, o cümlədən alqı-satqı, ipoteka əməliyyatlarının aparılmasını sürətləndirəcək.

Qeyd edək ki, əmlak çıxarışlarının bir gün ərzində verilməsi əmlakın qeydiyyatı sahəsində ilk yenilik deyil. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən bu prosesdə davamlı yeniliklərin tətbiqi, innovasiyalardan geniş istifadə olunması nəticəsində hazırda vətəndaşlar çıxarışlarını elektron şəkildə də ala bilirlər. Bir gündə verilməsinə baxmayaraq, çıxarışlar vətəndaşlara onların istəyi əsasında elektron şəkildə də təqdim olunur. Elektron çıxarış sisteminin tətbiqi qeydiyyat prosesinin tam olaraq avtomatlaşdırılmasına imkan verir. Daşınmaz əmlakın dövlət reyestrindən elektron imza ilə təsdiqlənən çıxarış Elektron Hökumət Portalında yerləşdirilir və portal vasitəsilə hüquqi sahibi tərəfindən elektron üsulla əldə edilir. Həmçinin daşınmaz əmlakın dövlət reyestrindən kağız formada təqdim olunan çıxarışda göstərilən məlumatlar elektron çıxarışda da əks olunur.

Sistemin istifadəsi, ilk növbədə, daşınmaz əmlakın qeydiyyatı prosesində vətəndaş-məmur ünsiyyətini minimuma endirir, əhalinin əmlaklarının qeydiyyatını daha da sadələşdirməklə bu sahədə operativlik və şəffaflığı artırır. Bundan əlavə, kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi ilə bağlı problemlər ortadan qalxır. Kağız çıxarışın saxtalaşdırılması və qanunsuz istifadə edilməsi halı tam istisna edilir.

***“Azərbaycan”***

# Akademik Zərifə Əliyeva - 95

## Görkəmli alim, akademik Zərifə Əliyevanın əziz xatirəsi yad edildi







Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Milli Elmlər Akademiyasının bu sahədə ilk akademiki, fədakar alim, qayğıkeş insan Zərifə xanım Əliyevanın anadan olmasından 95 il keçir.

Bu münasibətlə səhiyyə naziri Oqtay Şirəliyev başda olmaqla tibb ictimaiyyətinin nümayəndələri aprelin 28-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyublar.

Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

*AZƏRTAC*

## Akademik Zərifə Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans işə başlayıb

Aprelin 28-də Azərbaycanın tanınmış oftalmoloqu, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş "Oftalmologiyanın aktual problemləri" adlı beynəlxalq elmi-praktik konfrans işə başlayıb. Mötəbər tədbirdə Azərbaycan alimləri ilə yanaşı, Türkiyə, Rusiya, Belarus və digər ölkələrdən gəlmiş qonaqlar iştirak edirlər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyublar.

Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə əklil və tər çiçəklər düzülüb.

Görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

Sonra tədbirdə çıxış edən səhiyyə naziri Oqtay Şirəliyev Azərbaycanın tanınmış oftalmoloqu, akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu bildirib: "Zərifə xanım Əliyeva həmvətənlərinin qayğısına qalan humanist insan idi. Onun həyat ideyaları və şəxsiyyəti bu gün də müasir Azərbaycan gəncliyi üçün əsl nümunədir. Azərbaycan xalqına xas müsbət keyfiyyətlər, ali dəyərlər Zərifə Əliyevanın şəxsiyyətində cəmləşmişdi. İnsanlara nur bəxş edən, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanan Zərifə xanım tibb elminin ən uca pillələrinə yüksəlməklə yanaşı, nümunəvi bir həyat yolu keçib".

Qeyd olunub ki, görkəmli oftalmoloq vaxtilə Azərbaycanda geniş yayılmış traxoma, peşə fəaliyyəti ilə bağlı yaranan göz xəstəliklərinin





öyrənilməsi, profilaktikası və müalicəsi, habelə oftalmologiyanın problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir: "Onun "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri", "İridodiaqnostika", "Şəkərli diabet zamanı gözün patologiyası", "Oftalmologiyanın aktual problemləri" və bu kimi digər monoqrafiyaları çap edilib. Zərifə xanım Əliyeva ümumilikdə 200-ə qədər elmi işin, 14 monoqrafiyanın və 12 səmərələşdirici təkliflərin müəllifidir. Tanınmış alim yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına da böyük töhfələr verib".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə çıxışında Zərifə xanım Əliyevanın Azərbaycanın oftalmologiya elmində özünəməxsus yer tutduğunu bildirib: "Zərifə xanım böyük alim və gözəl insan idi. Mən onun haqqında yazı yazmalı olsaydım, bu yazının başlığı "Əvəzolunmaz insan" olardı. Azərbaycanın XX əsrinin görkəmli alimlərindən biri olan Zərifə xanım, eyni zamanda, alicənab, nəzakətli və çox sadə bir insan idi. Gözəl bir ailədə doğulan Zərifə Əliyeva çox qayğıkeş ana olub və ölkəmizə layiqli övladlar yetişdirib".

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımov bu günü Azərbaycan elminin böyük bayramı kimi qiymətləndirib. O, görkəmli alim Zərifə xanım Əliyevanın Azərbaycan elmini yüksəklərə qaldıraraq dünya səviyyəsində tanınmasında misilsiz xidmətlərindən danışıb: "Zərifə xanım dəyərli elmi əsərlərin müəllifi olmaqla yanaşı, elmi-pedaqoji və ictimai fəaliyyəti ilə yeni nəsil həkimlərin yetişməsində də böyük xidmətlər göstərib. Ötən əsrin 30-40-cı illərində Azərbaycanda tüğyan edən traxoma xəstəliyi 50-ci illərdə də geniş yayılmışdı. Akademikin diqqəti digər göz problemləri ilə yanaşı, bu xəstəliklə mübarizəyə də yönəlmişdi. O, Azərbaycanın traxoma ocağı aşkar edilən bütün rayonlarını gəzir, insanlar arasında bu istiqamətdə maarifləndirici söhbətlər aparır, traxoma və digər göz xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsinə dair əməli tədbirlər planını inamla həyata keçirirdi. Zərifə xanım ölkəmizdə traxoma əleyhinə işlədilən mövcud dərman preparatları ilə yanaşı, ö dövrdə güclü antibiotik sayılan sintomisindən istifadənin ilk təşəbbüskarı olub. Kompleks şəkildə tətbiq edilən bu müalicənin effektli nəticələri tezliklə özünü göstərdi".

Rəhbərlik etdiyi mərkəz haqqında məlumat verən E.Qasımov deyib: "Mərkəzdə 2005-ci ildən fəaliyyət göstərən səyyar klinika vasitəsilə ümumilikdə 36 min xəstəyə oftalmoloji-tibbi yardım göstərilib. Bu il mərkəzə ümumilikdə təxminən 106 min insan müraciət edib. Hazırda mərkəzdə bütün növ əməliyyatları həyata keçirmək mümkündür".

Rusiya Fasiləsiz Peşə Təhsil Tibb Akademiyasının rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Larisa Moşetova Zərifə Əliyeva ilə bağlı xatirələrini bölüşüb: "Zərifə xanım yalnız Azərbaycanın elmi üçün deyil, Rusiya oftalmologiyası üçün də uğurlu fəaliyyət aparıb. O, gözəl və təvazökar qadın olmaqla yanaşı, müdrik insan idi. Zərifə xanım çox sadə insan kimi mənim yadımda qalıb. Mən belə böyük alim, ziyalı qadınla tanış olduğum üçün taleyimə minnətdaram".

Rusiya Fasiləsiz Peşə Təhsil Tibb Akademiyasının akademiki Alevtina Brovkina və Türkdilli Ölkələrin Oftalmoloji Cəmiyyətinin sədri Sunay Duman Zərifə Əliyeva haqqında fikirlərini bölüşüblər. Bildirilib ki, Zərifə Əliyeva ölkəsini traxoma bəlasından qurtarıb. Moskvada təhsil alan və elmi fəaliyyətini bu şəhərdə davam etdirən Zərifə xanımın həyat yolu gənclər üçün bir nümunədir. Zərifə Əliyevanın əsərləri dünyanın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib".

İki gün davam edəcək konfransda görmə orqanlarının peşə patologiyaları, oftalmologiyanın sosial məsələləri, oftalmoloji yardımın təşkili, uşaq yaşlarında görmə orqanının patologiyası, optik mühitlərin patologiyaları, refraksiya pozuntuları, korreksiya, qlaukoma, vitreoretinal patologiya, oftalmoonkologiya, görmə orqanının yoluxucu və parazitar xəstəlikləri, görmə orqanı zədələri, uşaq yaşlarında görmə orqanının patologiyası kimi məsələlər müzakirə ediləcək.

Tədbirdə Prezident İlham Əliyevin sərəncamı ilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimlərinə "Əməkdar elm xadimi" və "Əməkdar həkim" fəxri adları təqdim edilib. Konfransda həmçinin səhiyyə nazirinin əmrinə əsasən, mərkəzin bir sıra əməkdaşı "Səhiyyə əlaçısı" döş nişanı və "Fəxri fərman"la təltif olunub.

## Akademik Zərifə Əliyeva ehtiramla anılıb

Azərbaycan oftalmologiya elminin, ümumilikdə səhiyyənin inkişafında əvəzsiz xidmətləri olan Zərifə xanım Əliyevanın xatirə günü İsmayıllı rayonunun ictimaiyyəti tərəfindən də dərin və məhəbbətlə qeyd edilib.




Əvvəlcə rayon mərkəzi xəstəxanasının baş həkimi Aydın Əsədov Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti barədə ətraflı danışıb. O, çıxışında Zərifə xanımın yüzlərlə insanın gözlərinə nur bəxş etməklə yanaşı, çoxsaylı oftamoloqların hazırlanmasındakı əvəzsiz xidmətlərindən də bəhs edib.

Şəhər 1 saylı tam orta məktəbin müəllimi Bahar Abdullayeva isə Zərifə xanımı Azərbaycan analarının, xanımlığının ümumiləşmiş simvolu, dövlət xadimi yetişdirən valideyn, yüksək elmi nailiyyətləri olan alim, yüzlərlə insana həyat nuru bəxş edən həkim kimi xarakterizə edib.

YAP rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova, İvanovka xəstəxanasının baş həkimi Mariya Prokofyeva da tədbirdə çıxış ediblər.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov isə öz çıxışında Zərifə xanım Əliyeva barədə ətraflı danışıb. Qeyd edib ki, Zərifə xanımla ümummilli lider Heydər Əliyevin ailəsi Prezident İlham Əliyevi milli taleyimizə bəxş etməklə Vətənimiz qarşısında misilsiz xidmət göstərib.

Mirdaməd Sadıqov daha sonra Əliyevlər ailəsinin üzvü olan İlham Əliyevin Azərbaycana hələ uzun illər rəhbərlik edəcəyini, xalqımızı daha uca zirvələrə çatdıracağını qeyd edib.

Xatirə günündə müğənni Rövşən Teyyubovun ifasında "Ana" və "Alagöz" mahnıları, Zərifə xanım Əliyevaya həsr olunmuş şeirlər səslənib, film və slaydlar nümayiş etdirilib.

***Əli SƏLİMOV, "Azərbaycan"***

## Milli Onkologiya Mərkəzində dünyanın məşhur tibb mütəxəssisləri ilə görüşlər olub

Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) baş direktoru akademik Cəmil Əliyev Köln Universitet Klinikasının aparıcı neyroradioloqları ilə görüşüb. Görüşdə klinikanın neyroradiologiya şöbəsinin rəhbəri, tibb elmləri doktoru, professor Anastasios Mpotsaris, tibb elmləri doktorları Volker Maus və Nuran Abdullayev iştirak edib.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı MOM-un elmi-klinik səviyyəsi yüksək qiymətləndirilib, gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Almaniyadan gəlmiş mütəxəssislər Milli Onkologiya Mərkəzinin reanimasiya, invaziv diaqnostika və müalicə şöbələrinin fəaliyyəti ilə yaxından tanış olublar. Onlar bu tibb müəssisəsinin işini yüksək qiymətləndiriblər.

Həmin gün Bakıda keçirilən IV Azərbaycan-Alman-Türk Konqresində iştirak edən dünya şöhrətli spikerlərin bir qrupu akademik Cəmil Əliyevin dəvəti ilə MOM-a gələrək bu məşhur səhiyyə ocağının maddi-texniki təminatı və burada əldə edilən yüksək tibbi nailiyyətlərlə tanış olublar. Görüşdə iştirak edən Almaniyanın Yena Universitet Klinikasının baş direktoru professor Uts Settmaxer, akademik İ.Pavlov adına Birinci Sankt-Peterburq Tibb Universitetinin rektoru professor Sergey Baqnenko, Davos kurslarının direktor müavini professor Diter Hanloset, Hamburq Qastroenteroloji Klinikasının baş direktoru Deniz Uyak və müxtəlif xarici ölkələrin tanınmış tibb müəssisələrinin əməkdaşları Milli Onkologiya Mərkəzində pasiyentlərin müayinə və müalicəsi üçün yaradılmış şəraitin çox yüksək səviyyədə olduğunu vurğulayıblar.

Mərkəzin rəhbəri ən son avadanlıqlarla təchiz olunmuş və müasir üsulların tətbiq edildiyi bu səhiyyə ocağının ölkə Prezidenti İlham Əliyevin ardıcıl və daimi qayğısı nəticəsində ərsəyə gəldiyini vurğulayıb. Bundan əlavə akademik MOM-un Cənubi Qafqazın ən müasir tibb müəssisəsi olduğunu da xüsusilə qeyd edib.

Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri, senator Alen Uper də Azərbaycana səfəri çərçivəsində Milli Onkologiya Mərkəzində olub. İxtisasca radioloq olan senator MOM haqqında çox eşitdiyini qeyd edib. O, mərkəzə səfər etməyə çox maraq göstərdiyini və burada olmaqdan məmnunluğunu vurğulayıb.

Mərkəzin baş direktoru akademik Cəmil Əliyev qonağa tibb müəssisəsi haqqında ətraflı məlumat verib. Senator mərkəzin şüa diaqnostikası, şüa terapiyası şöbələri və Nüvə Təbabəti Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olub.

Görüşün sonunda senator Alen Uper səmimi qəbul üçün təşəkkürünü bildirib və MOM-un muzeyində yerləşən Fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

## Azərbaycanın və Kosta-Rikanın xarici işlər nazirlərinin görüşü olub



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə işgüzar səfərdə olan Kosta-Rikanın xarici işlər naziri Manuel Qonzalez Sanz ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazirlər ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf perspektivlərini müzakirə ediblər.

Nazir Elmar Məmmədyarov iki ölkə arasında dostluğun və əməkdaşlığın inkişafına verdiyi töhfəsinə görə həmkarını Xarici İşlər Nazirliyinin fəxri fərmanı ilə təltif edib.

## Daxili işlər naziri Göyçayda vətəndaşların qəbulunu keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Ramil Usubov aprelin 28-də Göyçay şəhərində vətəndaşların qəbulunu keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayon polis şöbəsində keçirilən qəbulda Ramil Usubov Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir, Ağdaş şəhər və rayonlarının 44 sakini ilə görüşüb. Nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin qanunvericiliyə uyğun şəkildə həlli üçün aidiyyəti baş idarə, idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin əksəriyyəti yerində həllini tapıb.

Qəbulda iştirak edən vətəndaşlar bölgələrdə mütəmadi olaraq keçirilən belə görüşlərin təşkilinə, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə diqqətlə və həssas yanaşılmasına görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər. Sakinlər dövlət başçısının Azərbaycan Respublikasının tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini bildiriblər.

## Ermənistan ordusu atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## IV Azərbaycan-alman-türk tibb konqresi çərçivəsində III Bakı Beynəlxalq Tibbi Təlim günləri keçirilir

Milli Onkologiya Mərkəzi, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi və Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyətinin təşkilatçılığı ilə IV Azərbaycan-alman-türk tibb konqresi öz işini davam edir.




AZƏRTAC xəbər verir ki, konqresə xarici ölkələrdən dəvət olunan 10 professor aprelin 27-də Milli Onkologiya Mərkəzinin qonağı olub. Mərkəzin baş direktoru, akademik Cəmil Əliyev onları salamlayaraq həkimlərin ixtisaslaşması üçün göstərdikləri səylərə görə minnətdarlığını bildirib, Azərbaycanda tibbin bütün sahələrində və xüsusən də onkologiya sahəsində əldə edilən uğurlardan danışıb. Konqreslə eyni vaxtda III Bakı Beynəlxalq Tibbi Təlim günləri də keçirilir. Konqres öz işini treninqlərlə başlayıb və Azərbaycan, Almaniya, İsveçrə, Türkiyə və Rusiyadan olan professorların məruzələrini dinləməklə davam edib. Maraqlı müzakirə və diskussiyalar zamanı ölkəmizdən olan həkimlər xarici həmkarları ilə ondan artıq mövzu ətrafında elm və təcrübə mübadiləsi aparıb, müasir təbabətin aktual problemləri və onların qarşısının alınması üsullari ilə tanış olublar.

Bununla yanaşı, laparoskopik və ümumi cərrahiyyə, ginekologiya, ultrasəs diaqnostikası, endoskopiya, intensiv terapiya sahəsində yerli mütəxəssislər Avropadan və yaxın xarici ölkələrdən olan həmkarları ilə birlikdə 200-dən çox azərbaycanlı həkim öz sahəsində yeniliklərə yiyələnərək ən müasir modellər üzərində treninqlər icra edib, mürəkkəb prosedurların icra edilməsi texnikasını öyrəniblər.




# "Formula-1"in ən mükəmməl təşkilatçılıq modeli

*Azərbaycan Qran-prisində pilotları gərgin və maraqlı mübarizə gözləyir*






Dünyanın diqqəti Bakıdadır. Yüz milyonlarla izləyiciyə malik olan "Formula-1" yarışlarının həyəcanı 3-cü dəfə Azərbaycanda yaşanır. Bu gün Bakıda "F-1" Azərbaycan Qran-prisinin əsas yarış günüdür. Planetin bir nömrəli avtomobil yarışında dünyanın ən məşhur pilotları Luis Hamiltonu, Fernando Alonsonu, Sebastian Vetteli, Valtteri Bottası, Maks Ferstappeni və digərlərini Bakı Şəhər Halqasında gərgin və maraqlı mübarizə gözləyir.

### Sürətsevərlərin pilotlarla tanışlığı

Bakıda keçirilən "F-1" Qran-prisinin digər maraqlı tərəfi tamaşaçıların əyləncəsi və mənalı istirahəti üçün təşkil edilən tədbirlərdir. Bunlardan biri "Formula-1" pilotları ilə tanışlıqdır. İyunun 23-dən etibarən "Formula-1" azarkeşləri sevdikləri pilotlarla görüşərək onlardan avtoqraf almaq imkanına malikdirlər.

Azarkeşlər avtoqraf sessiyasının ilk günündə "Ferrari", "Haas" və "Williams" komandalarının pilotları ilə görüşüblər. Dünən isə "Toro Rosso", "Mercedes" və "Renault" komandalarının ən məşhur pilotları ilə görüşüb, onlardan avtoqraflar alıblar.

### Salam, Bakı

Aprelin 27-dən etibarən Azneft meydanından Dəniz vağzalına qədər bütün Dənizkənarı Milli Park ərazisində əyləncə zonaları fəaliyyətə başlayıb. Həmçinin azarkeşlər üçün pit yolu gəzintisi təşkil olunub. Bununla onlar "Formula-1" aləminə daha da yaxınlaşırlar. Gəzinti zamanı azarkeşlər novativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesinin şahidi olublar.

Bayram ab-havasına bürünmüş Bakıda sürət və adrenalin həvəskarları simulyatorlarda test edərək özlərini əsl "F-1" sürücüsü yerində görə bilirlər. Azarkeşlər bu oyunlarda sanki Azərbaycan Qran-prisinin bir hissəsinə çevrilərək bu mötəbər yarışın həyəca-




pit yolunu keçərək komandaların yarışa hazırlığına şahidlik edir, pit-stop əməliyyatlarını öz gözləri ilə görürlər. İzləyicilər komandaların qarajlarında dünyanın ən innını yaşayır, onun adrenalinini hiss edirlər. Uşaqlar üçün əyləncəli yarışların təşkili də unudulmayıb. Burada uşaqlar üçün əyləncəli və təhlükəsiz mühitdə yol hərəkəti qaydalarını öyrədən sü-



rücülük məktəbi yaradılıb. Bundan əlavə, uşaqlar müvəqqəti kartinq halqasında dövrələri daha tez başa vurmaq üçün yarışırlar.

### Luis Hamilton tilsimi qıra biləcəkmi

Artıq iki günü arxada qalan "Formula-1" Azərbaycan Qran-prisində maraqlı mübarizənin şahidi oluruq. Sözsüz ki, bu gün keçiriləcək əsas yarışda da sürət həvəskarları pilotların gərgin yarışını izləyəcəklər.

Builki çempionatın ilk iki mərhələsində - Avstraliya və Bəhreyn Qran-prilərində "Ferrari"nin üzvü Sebastian Fettel, Çin Qran-prisində isə "Red Bull Racing"in pilotu Daniel Rikkardo qalib gəlib. Hazırda S.Fettel 54 xalla çempionata liderlik edir. Ötən ilki çempion L.Hamilton 45 xalla ikinci, onun komanda yoldaşı Valtteri Bottas 40 xalla üçüncüdür. D.Rikkardo isə 37 xalla dördüncü sırada qərarlaşıb.

Cari mövsümün hazırda ən böyük sürprizi hələ ki "Mercedes" komandasının üzvü Luis Hamiltonun qələbə qazana bilməməsidir. Pilotlar arasında ən titullusu sayılan britaniyalı dörd dəfə dünya çempionu ünvanına sahibdir. "Formula-1" yarışında ilk dəfə 2007-ci ildə "McLaren" komandasının heyətində debüt edən britaniyalı pilot 2008-ci ildə birinci çempionluğunu yaşayıb. 2013-cü ildə "Mersedes" komandasına transfer edilən Luis üç dəfə - 2014-cü, 2015-ci və 2017-cı illərdə ən güclü olduğunu sübut edib.

### Dünya ulduzları "Baku Crystal Hall" səhnəsində

"Formula-1" Azərbaycan Qran-prisinin ikinci gününün həyəcanlı və maraqlı yarışlarından sonra azarkeşlər axşam saatlarında yenidən "Baku Crystal Hall"a toplaşıblar. Dünya ulduzlarından Kristina Aqilera Bakıda avtoidman azarkeşlərinin qarşısında səhnəyə çıxıb. O, "Formula-1" həvəskarları üçün "Say something", "Hurt" və "Fighter" kimi ən məşhur ifalarını səsləndirib. K.Aqilera və məşhur DJ Axwell ^ Ingrossonun enerjili və coşqulu ifaları konserti dinləməyə gələnlərə unudulmaz gecə yaşadıb. Bu gün isə estafeti dünyanın ən tanınmış ulduzlarından olan Dua Lipa və Dj Martin Solveyq qəbul edəcək.

Beləliklə, Bakıda bu gün yekunlaşacaq Azərbaycan Qran-prisi göstərir ki, "Formula-1" təkcə yarış deyil, həm də unudulmaz istirahət üçün möhtəşəm bir tədbirdir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Bakıda «Formula-1» coşqusu

***Əvvəli 1-ci səh.***

Eyni zamanda, bu il yarışa beynəlxalq səviyyədə də böyük maraq göstərilir. Şübhəsiz ki, bunda Bakı Şəhər Halqasının möhtəşəm yarışa evsahibliyi etməsi ilə yanaşı, burada tamaşaçıların müxtəlif zövqlərinə uyğun çoxsaylı əyləncə və konsert proqramının olmasının da böyük rolu var.

Ümumilikdə 68 ölkədən bilet alınıb və bu biletlərin 45 faizi xarici ölkələrin payına düşür. İlk onluğa Rusiya, Monako, Böyük Britaniya, Ukrayna, Avstriya, Gürcüstan, Hollandiya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və Amerika Birləşmiş Ştatları daxildir.

Xatırladaq ki, ilin əvvəlində Prezident İlham Əliyev bu il "Formula-1" Azərbaycan Qran-pri yarışının təşkili və keçirilməsi ilə bağlı ölkəmizə gələcək əcnəbilər, vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalamışdı. Bu da onu təsdiqləyir ki, Azərbaycan dövləti yarışları izləmək üçün ölkəmizə gəlmək istəyən azarkeşlərə hərtərəfli imkanlar yaradır.

### Yarışlara 68 ölkədən bilet alınıb

Yarışları izləmək üçün 68 ölkədən bilet alışı onu təsdiq edir ki, bu il də "Formula-1" mərhələsini izləmək üçün ölkəmizə gələnlərin sayında artım olub. Çünki kiçik müqayisə bunu təsdiq edir.

İlk dəfə, yəni, 2016-cı ildə Bakıda keçirilən Avropa Qran-prisini izləmək üçün ölkəmizə 30 min tamaşaçı gəlmişdi. 2017-ci ildə isə Azərbaycan Qran-prisini izləməyə gələnlərin sayı 71, 541 nəfərə yüksəldi. Bu isə o deməkdir ki, Bakıda baş tutan ikinci "Formula-1" yarışına 2016-cı ildəkindən 30 faiz çox tamaşaçı gəlib. Yəni, xaricdən gələn avtoidman azarkeşlərinin sayı iki dəfə çox olub. Ümumilikdə isə 65 ölkədən azarkeş gəlib.

Bu il isə 68 ölkənin azarkeşinin Bakıda "Formula-1" həyəcanını yaşaması turistlərin sayında artımın olduğunu təsdiq edir. Bu göstəricilərə əsaslanaraq deyə bilərik ki, bu yarış Azərbaycanın turizm sənayesinin inkişafı istiqamətində həyata keçirilən proqramların artıq müsbət nəticələr verdiyini bir daha göstərir.

### "Formula-1"in Azərbaycan nümunəsi

Son illər beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi ölkəmizin nüfuzunun yüksəldiyini sübut edir. Çoxsaylı idman tədbirləri, sərgilər, konfranslar, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı artıq dünya ictimaiyyətinə ölkəmiz haqqında kifayət qədər dolğun məlumatın çatdırılması üçün şərait yaradır.

Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini gücləndirir.

Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan mötəbər tədbirlərin keçirilməsi üçün ideal məkandır. Azərbaycan qədimliklə müasirliyin qovuşduğu coğrafi areal olaraq bu məqsədlərə yönəlmiş mühüm təşəbbüslərlə çıxış edir. Əlbəttə ki, bu məqamda Azərbaycanın təşkilatçılığının beynəlxalq miqyasda yüksək dəyərləndirildiyi faktını da xüsusi qeyd etmək lazımdır.

Bir sözlə, təkcə Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınan Azərbaycan "Fomula-1" ilə uğur estafetini davam etdirdi. Ölkəmizin bu mötəbər idman tədbirini yüksək səviyyədə keçirmək iddiası ilə imkanlarının üst-üstə düşdüyünü isə xüsusi vurğulamağa ehtiyac yoxdur. Çünki beynəlxalq ictimaiyyət aprelin 27-də start götürən möhtəşəm idman yarışını izləməklə bunun bir daha əyani şahidi olacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İlk dəfə pilotları azyaşlılar müşayiət edəcəklər

"Formula-1" üzrə Azərbaycan Qran-prisində bir ilk yaşanacaq. İlk dəfə olaraq paradda və himn mərasimində pilotları qızlar deyil, azyaşlılar müşayiət edəcəklər.

"Qrid uşaqları"nın çıxışı "Formula-1" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi yeni qərara əsasən baş tutacaq. Məqsəd yarışdan əvvəl keçirilən açılış mərasimini "F-1" azarkeşləri, xüsusən də gənclər üçün daha maraqlı etməklə yanaşı, uşaqlar və yeniyetmələr arasında avtomobil idmanını təbliğ etməkdir.

Bu təşəbbüsü ölkəmizdə Azərbaycan Avtomobil Federasiyası (AAF) ilə "F-1" Qran-prisinin promouteri olan Bakı Şəhər Halqası (BŞH) birgə həyata keçirir. AAF və BŞH azyaşlıları bu unikal fürsətlə təmin etməklə, onlara yarışın müstəsna və ən həyəcanlı məqamının bir hissəsi olmaq imkanı yaradır.

Qeyd edək ki, "Gələcəyin ulduzları" Azərbaycan Avtomobil Federasiyası tərəfindən idman yarışlarında və təhsildə fərqlənən, həmçinin xüsusi istedada malik 7-10 yaşlılar arasından seçilib. 20 uşağın (10 qız və 10 oğlan) hər biri mərasim zamanı bir pilotun yanında dayanacaq. Azərbaycan Qran-prisində iştirak edəcək "Gələcəyin ulduzları" üçün yarış həftə sonuna dair təlimlər keçirilib və aprelin 25-də görüş zamanı uşaqlara müvafiq tapşırıqlar verilib.

### Daniel RİKKARDO: "Bakıda favoritlər arasında olduğumuzu düşünürəm"

"Sərbəst yürüşlərdə sürətli idik. "UltraSoft"la uzun seriya daha yaxşı alına bilərdi. Lakin "SuperSoft" şinləri ilə maşının davranışından məmnunam". Ötən il Bakıda keçirilən yarışın qalibi olan avstraliyalı pilot Daniel Rikkardo yenə də özünü favoritlər sırasında görür.

Azərbaycan Qran-prisinin ikinci sərbəst yürüşündə ən yaxşı nəticə göstərən "Red Bull" komandasının pilotu sıralama turunda necə olacağını təsəvvür etmək istəmir: "Rəqiblərin nə qədər artıracaqlarından xəbərsizəm. İlk sırada start etməsək belə, yarış zamanı sürətli olmalıyıq. Bakıda favoritlər arasında olduğumuzu düşünürəm. Adətən, burada asfaltla təmas çatışmır. Bu şərtlərdə belə, boliddən razı qaldım. Ümid edirəm ki, yarış günü də bu cür xoş hisslər olacaq. Proqnoza əsasən, həftəsonu hava küləkli olmalıdır. Bu, bizə maneə yaratsa belə, şərtlər hamı üçün eynidir".

### Bakı trasında avtomobili idarə etmək rahatdır

"McLaren" komandasının pilotu Fernando Alonso ötən gün təlimlərdən çox razı qaldığını deyib. Qeyd edib ki, Bakı trasında avtomobil idarə etmək rahatdır və şəhər traslarında döngələrdə hərəkətə keçmək üçün əminlik olmalıdır.

F.Alonso bütün sektorlarda avtomobili yaxşı idarə etdiyini bildirib. O, növbəti mərhələdə daha yaxşı nəticələr əldə edəcəyinə ümidli olduğunu söyləyib.

***"Azərbaycan"***

# "Formula-2"də ilk qalib məlum oldu

Dünən Azərbaycan Qran-prisi çərçivəsində "Formula-2" üzrə birinci yarışda qalib məlum olub. On komandadan 20 pilotun qələbə uğrunda mübarizə apardığı yarış gərginliyi ilə seçilib.

29 dövrənin yekununda "Dams" komandasının pilotu Aleksander Albon 1 saat 3 dəqiqə 41,627 saniyəlik nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

"ART Grand Prix" komandasının pilotu Cek Aitken ikinci, "Charouz Racing System"in üzvü Antonio Fuoko üçüncü yeri tutublar.

"Formula-2"nin ikinci yarışı bu gün saat 13:10-da başlayacaq. Sonuncu yarış 21 dövrə və ya 45 dəqiqə davam edəcək.

***E.CƏFƏROV, "Azərbaycan"***




# Sebastian Fettel günün lideridir

Aprelin 28-də Azərbaycan Qran-prisi çərçivəsində "Formula-1" yarışının üçüncü sərbəst yürüşü və sıralama turu keçirilib. Yürüşə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb.

Bir saat ərzində 6 kilometrlik Bakı trekindəki 3-cü sərbəst yarışın yekununda qalib müəyyənləşib. "Ferrari" komandasının pilotu Sebastyan Fettel 1 dəqiqə 43,091 saniyə göstərici ilə birinci olub. "Mercedes"in sürücüsü Luis Hamilton ikinci, "Ferrari"nin digər pilotu Kimi Raikkonen isə üçüncü yerlə kifayətlənib.

Üçüncü sərbəst yürüşdən sonra sıralanma turu başlayıb. "Renault" komandasının almaniyalı pilotu Niko Hulkenberq mühərrik dəyişikliyi ilə əlaqədar beş mövqe cəzalandırılıb. N.Hulkenberq üçüncü sərbəst yürüşdə pit-stop həyata keçirərkən komanda texniki qüsurlarla əlaqədar mühərriki dəyişməli olub. "Formula-1" qaydalarına əsasən, bir mühərrik azı altı mərhələdə istifadə olunmalıdır. Bununla əlaqədar N.Hulkenberqə cəza verilib. Beləliklə, sıralanma turunda tutduğu yerdən asılı olmayaraq, almaniyalı pilot yarışa 5 mövqe geridən başlayacaq.




Turun nəticəsinə əsasən, yarışda pilotların düzülüşü aşağıdakı kimidir:

1. Sebastian Fettel, "Ferrari"; 2. Luis Hamilton, "Mercedes"; 3. Valtteri Bottas, "Mercedes"; 4. Daniel Rikkardo, "Red Bull Racing"; 5. Maks Ferstappen, "Red Bull Racing"; 6. Kimi Raykonnen, "Ferrari"; 7. Esteban Okon, "Force India"; 8. Serxio Peres, "Force India"; 9. Niko Hulkenberq, "Renault"; 10. Karlos Sainz, "Renault"; 11. Lans Stroll, "Williams"; 12. Sergey Sirotkin, "Williams"; 13. Fernando Alonso, "McLaren"; 14. Çarlz Lekler, "Sauber"; 15. Kevin Maqnussen, "Haas"; 16. Stoffel Vandurn, "McLaren"; 17. Pyer Qasli, "Toro Rosso"; 18. Markus Eriksson, "Sauber"; 19. Brendon Hartli, "Toro Rosso"; 20. Roman Qrojan, "Haas".

***E.CƏFƏROV, "Azərbaycan"***

Milli qəhrəmanlarımız

# Nəsillərə nümunə



**Nofəl Zahid oğlu Quliyev - Əli Bayramlı şəhərində doğulub. Cəmi 29 il yaşayıb. Bir müddət Tümen vilayətində işləyib. Bütün bunlar Milli Qəhrəmanın ömür yolundan ən kiçik fraqmentlərdir. Qısa ömrün yaddaqalan məqamları ötən əsrin 90-cı illərindən sonra başladı. Atası Zahid kişi məktublarında yazır ki, hələ Tümendə olanda dəfələrlə Nofəli öz yurduna - Azərbaycana çağırdım.**

Hər dəfə də eyni cavabı yazırdı: “İşlərimi bitirib gələcəyəm, gözləyin”. İllər ötsə də, Nofəlin vətənə dönüşü gecikirdi. Amma son məqamda, daha doğrusu, 90-cı ildə qəti qərar verdi. Nofəl bu barədə xatirələrində belə yazır: “Erməni quldurlarının vəhşiliyi son həddə çatmışdı. Tez-tez torpaqlarımızın işğalı ilə bağlı xəbərlər eşidirdim. Artıq dözülməz bir vəziyyət yaranmışdı. Mütləq vətənə dönməliydim. Bu barədə atama da yazdım ki, tezliklə Azərbaycana qayıdacağam. Amma doğulduğum Əli Bayramlı şəhərinə yox, yalnız cəbhə bölgələrinə. O yerlərə ki, orada torpaqlarımızın taleyi həll olunur”.

Nofəl Azərbaycana qayıdan kimi Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul olundu. Könüllü olaraq cəbhə bölgəsinə yollandı. Füzulidə, Goranboyda və digər qaynar nöqtələrdə döyüş tapşırıqlarını yerinə yetirməyə başladı. Bircə məqsədi vardı: erməni quldurlarından qisas almaq, itirilmiş torpaqlarımızın geri qaytarılmasında var gücünü sərf etmək. Elə ilk günlərdən qabiliyyətinin, bacarığının nəyə qadir olduğunu sübut etməyə başladı. Nofəl ən çətin döyüşlərdə iştirak edirdi. Ən qısa müddətdə ona güclü inam yaranmışdı. Bunun da səbəbləri vardı. Dəfələrlə ən çətin əməliyyatlarda Nofəl axıradək fərqlənə bilmişdi. Deyirdilər ki, o, qorxu nə olduğunu bilmir. İrəli getmək üçün yollar arayır, düşmənin həssas nöqtələrini seçə bilirdi. O, heç vaxt, heç vədə söz verməzdi, əməl etməyə çalışardı. Və bununla da etimad qazanardı.

1991-ci il iyun ayının 15-də ermənilər güclü ordu və texnika ilə Todan kəndinə hücum etdilər. Goranboyun bu böyük kəndi ciddi təhlükə qarşısında idi. Dinc əhalini döyüş bölgəsindən çıxarıb təhlükəsiz yerlərə çatdırmağa ciddi ehtiyac vardı. Nofəl Quliyev bu çətin əməliyyatda sona qədər iştirak etdi. Deyir ki, ona sığınan, kömək istəyən kənd sakinlərinə yardım etmək üçün bütün imkanlarını səfərbər etmişdi. Yüzlərlə ailəni - xəstəni, qocanı ölüm təhlükəsindən qurtarmışdı. Bu kəndin sakinləri ona öz xilaskarı kimi baxır, Nofəl Qulieyə daha çox güvənirdilər. Döyüşlərin qızğın çağında Nofəl bir neçə dəfə yaralansa da, son məqama qədər döyüş meydanını tərk etmədi. O, düşməni çaşdırmaq üçün bütün çevik əməliyyatlardan faydalanırdı.

Nofəl Quliyev cəbhə gündəliyində həmin günləri belə xatırlayır: “Todan uğrunda döyüşlərdə güllə yağışı ilə üz-üzə qalmışdıq. Körpə uşaqları, köməksiz qocaları xilas etməyə can atırdıq. Bir məqamı xatırlayıram, qucağında körpə uşağını başqa bir səmtə çatdırmaq istəyən ana yalvara-yalvara məndən kömək istəyirdi. Onda hiss etdim ki, bu əlacsız qadının məndən başqa güman, hayan yeri yoxdur. Var gücümlə ona kömək etməyə çalışdım, amma güllə yağışı bizə mane olurdu. Belə döyüşlərdə xilaskar olmaq o qədər çətindir ki... Vəziyyət nə qədər gərgin olsa da, məqam tapıb bu ananı körpəsi ilə birgə xilas etdim, nisbətən təhlükəsiz yerə çatdırdım. Onda az-çox təsəlli tapdım”.

Milli Qəhrəmanın cəbhə gündəliyində belə sətirlər çoxdur və bu sətirləri həyəcansız oxumaq olmur. Yüzlərlə ailəyə kömək etməyə cəhd göstərən Nofəl son anda düşmən gülləsinə tuş gəlir və bu zərbədən xilas ola bilmir.

Doğma ocağında - Əli Bayramlıda onu bir övladı gözləyirdi. Hər dəfə təsəlli dolu məktublarında yazırdı ki, mütləq qayıdacağam, məni gözləyin... Amma bu dəfə vədinə əməl edə bilmədi. Onu gözləyənlərin gözü birdəfəlik yolda qaldı.

Bu gün keçmiş Əli Bayramlıda - indiki Şirvan şəhərində bir ailə yaşayır. Və bu ocaqda Milli Qəhrəmanın yadigarı olan yeganə övladı böyüyür. Atasının arzularını, istəklərini doğrultmaq üçün kövrək bir ömür yaşayır. Onu daha ciddi sınaqlar, atasının varislik ənənəsini ləyaqətlə doğrultmaq ənənəsi gözləyir. Milli Qəhrəmanın atası Zahid kişi deyir ki, müharibə bizə çox zərbələr vurdu. Torpaqlarımızı, övladlarımızı əlimizdən aldı. O qədər yadigarlarımızı itirdik ki... Sayıb-sadaladıqca vahimələnirəm. Bircə onu təsəlli sayıram ki, el-oba belə oğullara güvənir, onları sipər bilir. Yoxsa yaşamaq da çətin olar, mübarizə aparmaq da... İnanıram ki, bizim düşmənlərimiz - erməni quldurları cəzasız qalmayacaq. Ona görə ki, bilərəkdən və qəsdən haqqımızı pozurlar, torpaqlarımızı ələ keçirməyə can atırlar. Biz yalnız özümüzə, varislərimizə inanırıq. Ordumuzun gücünə, dövlətimizin qətiyyətli qərarlarına arxalanırıq. Bu gün Milli qəhrəmanları böyüdən ailələrə, valideynlərə dövlət qayğısını, yardımını hər an hiss edirik və inanırıq ki, ordumuzun gücü, yenilməz mövqeyi düşməni birdəfəlik susduracaq. Biz yalnız o günü gözləyirik. Gözləyirik ki, düşmən layiq olduğu cavabı alsın.

Bu gün Şirvan şəhərində Milli Qəhrəman Nofəl Quliyevin adını daşıyan məktəbdə yeni bir nəsil təhsil alır. Onlar hər gün Nofəlin büstü qarşısında ayaq saxlayır, ona hörmət və ehtiramlarını bildirirlər. Belə bir ənənənin yaşaması, nəsillərin bir-birinə etibarlı etimadı bizim qələbəyə inamımızı birə-beş artırır...

***Bəşir ŞƏRİFLİ,***
***“Azərbaycan”***

# Şəhid ailələrinə dövlət qayğısı yüksək səviyyədədir

Bu gün müstəqil respublikamızda bütün sahələri əhatə edən yüksək inkişaf, vətəndaşlara göstərilən diqqət və qayğı ümummilli lider Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət öz bəhrəsini verir. Azərbaycan dünyanın aparıcı ölkələri arasında öz layiqli yerini tutur. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar bu gün inkişaf və intibah tarixini yaşayan müstəqil dövlətimizlə və Azərbaycanımızı dünyaya tanıtdıran ölkə rəhbəri ilə fəxr edir.

Prezident İlham Əliyev mühüm sosial müdafiə əhəmiyyəti daşıyan daha bir fərman imzaladı. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı dövlət başçısının verdiyi fərman şəhid övladlarına və ailə üzvlərinə bir daha sübut etdi ki, şəhidlər unudulmur, onların ailələrinə yüksək diqqət var.

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş qəhrəman vətən övladlarının ailə üzvlərinin rifah halının yaxşılaşdırılması məqsədilə verilən bu fərman böyük minnətdarlıqla qarşılandı.

Biz də bu fərmanın əhatəsinə düşən hərbi qulluqçu ailəsiyik. Həyat yoldaşımız torpaqlarımızın bütövlüyü uğrunda öz zabit borcunu şərəflə yerinə yetirərkən şəhid olmuşdur.

Biz iki bacı şəhidlərimizin beş övladını xalqını, vətənini sevən və ölkəsinə ataları tək ləyaqətlə xidmət edən ali təhsilli mütəxəssislər kimi yetişdirmişik.

İlham Əliyevin Ali Baş Komandanı olduğu Azərbaycan Silahlı Qüvvələrinin vətən torpaqlarını işğalçılardan azad edəcəyi günün yaxınlaşdığına əminik və bütöv Qarabağda, Şuşada Cıdır düzündə keçirəcəyimiz qələbə bayramını səbirsizliklə gözləyirik. Şəhid qanıyla suvarılmış müqəddəs torpaqlarımız düşmənin murdar ayaqlarından təmizlənəcək.

İnanırıq ki, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin - əzmkar sərkərdəmizin əmrinə müntəzir olan igid Azərbaycan oğulları, mərd ərənlər müsəlləh əsgər kimi torpaqlarımızı işğaldan xilas edəcəklər. Namərd düşmən layiq olduğu cəzasını alacaqdır.

Arzu edirik ki, vətən bayrağı daim ucalarda dalğalansın, heç vaxt hüznlə şəhid məzarları üstünə endirilməsin! O gün olsun bayrağımız yenə Qarabağımızın göylərində, Şuşamızın qala divarları üzərində, Cıdır düzündə qürurla dalğalansın! Vətənimiz bayram etsin! Uğrunda qanımızı tökdüyümüz vətən bayrağı daim ucalarda olsun!

***Rəhilə CƏBRAYILOVA,***
***Azərbaycan Bayrağı ordenli şəhid zabit Nazim Cəbrayılovun həyat yoldaşı***

***Aybəniz İSMAYILOVA,***
***şəhid zabit Əşrəf İsmayılovun həyat yoldaşı***

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2018-ci İLİN MAY AYINDA VƏTƏNDAŞLARIN QƏBULU**

**C Ə D V Ə L İ**

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 7 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 17 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 21 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 23 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 3 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 14 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 21 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 10 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 24 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 16 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavinin | 30 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 24 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 2 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 31 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 4 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 18 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 22 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 18 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 25 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 8 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18.00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# K.Karapetyan Paşinyanla görüşməkdən imtina etdi

## Ermənistanda hakimiyyət-xalq savaşının yeni mərhələsi başlanır

**Ermənistanda geniş əhali kütləsi tərəfindən başlanan etiraz aksiyaları fonunda getdikcə dramatikləşən hadisələr hakimiyyətin mövqeyini əhəmiyyətli dərəcədə zəiflətməkdədir. Buna rəğmən Serj Sarkisyanın gedişindən sonra Karen Karapetyanın rəhbərlik etdiyi iqtidar düşərgəsi qarşı tərəfə daha sərt formada müqavimət göstərmək qərarına gəlib. Elə bu fonda vəziyyət daha da gərginləşməkdə, daxili savaş ehtimalı daha sürətlə yüksəlməkdədir.**



Hazırda görünən odur ki, Ermənistan müxalifətinin lideri Nikol Paşinyan danışıqlar yolu ilə hakimiyyəti ələ keçirmək istəyir. Bununla bağlı o, ölkə prezidenti Armen Sarkisyanla görüşüb. Paşinyan “Facebook” səhifəsində görüşlə bağlı yazıb: “Ölkədə yaranmış vəziyyəti və mümkün həll yollarını müzakirə etdik. Sarkisyan həmçinin özü ilə sənədləri gətirdi. Bu sənədlərdə onun 2011-ci ilin dekabrında Böyük Britaniya vətəndaşlığından çıxdığı göstərilirdi”. Paşinyan onu da bildirib ki, Respublika Partiyası ilə koalisiyadan ayrılan “Daşnaksütyun”un nümayəndələri ilə də ölkədəki vəziyyəti müzakirə edib.

Paşinyan həmçinin Ermənistanın baş naziri vəzifəsini müvəqqəti icra edən Karen Karapetyanla görüşməyi təklif edib: “Respublika Partiyası qərara gəldi ki, Karapetyana danışıqlar üçün səlahiyyət verməlidir. Biz, əvvəlki kimi, bizim çağırışlarımız çərçivəsində danışıq prosesini davam etdirməyə hazır olduğumuzu ifadə edirik. Mən Karapetyanı danışıqlar prosesinə dəvət etdim”.

O vurğulayıb ki, danışıqlar jurnalistlərin iştirakı ilə keçirilməlidir: “Biz hakimiyyətlə bağlı qapılar arxasında danışıqlar aparmayacağıq”.

Amma son məlumatlara görə, Karen Karapetyan Paşinyanla görüşdən imtina edib. Karapetyanın mətbuat katibi Aram Araratyan bu xüsusda bildirib: “Karen Karapetyan öz fikrində qalır. Jurnalistlərin iştirakı ilə danışıqlar nəticəsiz olacaq”.

Paşinyan isə Karen Karapetyanın onunla jurnalistlərin qarşısında danışıqlar aparmaqdan imtina etməsini hakim Respublika Partiyası daxilində hökm sürən çaxnaşma ilə izah edib: “Bu o deməkdir ki, Respublika Partiyasında tam çaxnaşma hökm sürür, çünki ötən gün onlar elan ediblər ki, danışıqlara hazırdırlar. Heç bir şərt qoymadan. Bu gün isə, gördüyünüz kimi, Karapetyanın yerində mənim çantam dayanıb”.

Paşinyana görə, Karapetyanın görüşdən imtinası özünə inamın olmaması ilə bağlıdır: “Fikrimcə, onlar özlərinin danışıqlar aparmaq gücünə inanmırlar. Əgər adam ölkə daxilində öz potensialına əmin deyilsə, Qarabağa dair danışıqları necə aparacaq? Biz Azərbaycanla danışıqlarda da belə situasiya ilə qarşılaşacağıq”.

Bu isə Paşinyanın artıq asanlıqla hakimiyyətə yiyələnə bilməyəcəyini, Ermənistanda etiraz aksiyalarının davam edəcəyini göstərir.

Yerevanda aksiyalar ikigünlük təxirə salınsa da, hakimiyyətin addımına etiraz olaraq ölkənin ikinci böyük şəhəri olan Gümrüdə, ardınca üçüncü böyük şəhəri Vanadzorda mitinqlər keçirilib. Müxalifət paytaxtda etiraz aksiyalarının “görünməmiş gücə” 29-30 aprel və 1 may tarixlərində yenilənəcəyini bəyan edib.

Paşinyan bildirib ki, onu baş nazir seçməsələr, bu posta heç kim seçilməyəcək. Siyasətçinin fikrincə, o, bütün parlament fraksiyalarının ortaq qərarı ilə bu vəzifəyə irəli sürüləcəyinə ümid edir.

Erməni ekspert Pakrat Estukyan bildirir ki, artıq Ermənistanda yeni siyasi vəziyyət yaranmaqdadır və bu vəziyyətdə Yerevan hakimiyyəti özünün geosiyasi oriyentirlərinə yenidən baxmalı olacaq: “Vəziyyət belədir ki, Ermənistan əhalisi ölkənin inkişafı ilə bağlı ümidlərini Qərbə bağlayıb. Həmin Qərbdə isə erməni diasporu kimi amil mövcuddur və bu amil erməni dövlətinin həyatında xüsusi rol oynayır. Eyni zamanda, Ermənistan, Gürcüstan kimi, birdən-birə strateji inkişaf kursunu Avropaya inteqrasiyaya tərəf çevirə bilməz. Serj Sarkisyanı hansı xarici oyunçunun güc tətbiq etməməyə dilə tutmasını bilsəydik, Ermənistanın gələcək xarici siyasət kursu məsələsində proqnoz vermək asanlaşardı. Lakin bu suala hələlik cavab yoxdur”.

“1in.am” saytı da vəziyyətin mürəkkəb olduğunu yazır: “Proqnozlaşdırmaq olardı ki, “Daşnaksütyun” koalisiyadan çıxdıqdan sonra öz nazir və qubernatorlarını geri çağıracaq. Bu gün artıq bu, baş vermiş faktdır, şübhəsiz, Karen Karapetyanın mövqeyinə zərbədir. Belə təəssürat yaranır ki, Karen Karapetyan mövcud olmayan, dağılmış, iki gün ərzində 4 naziri istefa haqqında ərizə vermiş bir kabinetdə baş nazir vəzifəsini icra edəndir. Hələlik Respublika Partiyası 1 mayda keçiriləcək baş nazir seçkisi ilə əlaqədar konkret mövqe bildirməyib. Hərçənd, böyük ehtimalla, ənənəvi partiyanın seçimi sonda Nikol Paşinyan olacaq, ona görə ki, indi bizim gerçəklik “qaralara və ağlara” bölünməni diktə edir, bu da onu nəzərdə tutur ki, əgər “Daşnaksütyun” Karen Karapetyana qarşı durursa, onda, böyük ehtimalla, Paşinyanın düşərgəsində mövqe tutur.

Ümumiyyətlə, belə təsəvvür yaranır ki, sanki hakimiyyətin total təslim olması prosesi başlayıb, bu da Karen Karapetyanın baş nazirlik ambisiyalarına qarşı ictimai və siyasi konsolidasiyadan başqa bir şey deyil. Prezident Armen Sarkisyan çox diqqətəlayiq bir bəyanat yaydı. O qeyd etdi: “Bütün siyasi qüvvələr, xüsusilə Milli Məclisdə təmsil olunanlar, eynilə Serj Sarkisyan kimi, ayıq qiymətləndirmə ilə yeni Ermənistana qapı açdılar, konstitusiyanı rəhbər tutmaqla koordinasiyalı şəkildə bu yolu qurmalıyıq”. Armen Sarkisyanın işarəsi olduqca diqqətəlayiqdir: o, əslində, parlament çoxluğunu Serj Sarkisyanın nümunəsində təslim olmağa çağırır. Demək olar, heç bir şübhə yoxdur ki, Serj Sarkisyanın Respublika Partiyası ilə sonuncu görüşünün daxili mənası da belə olub. Ola bilsin, paradoksal səslənəcək, lakin əgər Respublika Partiyası siyasi qərar əsasında 1 mayda Nikol Paşinyanın namizədliyini dəstəkləyərsə, özünün müəyyən təsirini və nisbi birliyini saxlaya bilər.

Digər tərəfdən, Nikol Paşinyan formal motivasiya əsasında - ehtimal olunan təxribatlardan yayınmaq üçün Yerevan küçələrinin bağlanmasının dayandırılması haqqında qərar qəbul etdi. Paşinyanın bu qərarı da çoxqatlıdır. “Məxməri inqilab”ın lideri 1 mayda qalib gələcəyinə şübhə etmədiyi haqqında meydana mesaj göndərməklə qalib mövqeyindən çıxış edir. Başqa bir tərəfdən, Paşinyanın bu addımı göstərir ki, onun baş nazirliyi məsələsi ətrafında, ehtimal ki, həm də Respublika Partiyasının iştirakı ilə geniş konsensus formalaşıb. Bu da, mahiyyət etibarilə, hakimiyyətin sivil yolla - Karen Karapetyanın ambisiyalarının qurban verilməsi hesabına təslim olmasıdır”.

Bütün bunlar Ermənistanda vəziyyətin hələ də gərgin olduğunu və bu halın ölkənin tənəzzülünü daha da sürətləndirəcəyini göstərir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## 30 aprel Beynəlxalq Caz Günüdür

# Sənəti ucaldan sevgidir

Sabah Beynəlxalq Caz Günüdür. UNESCO-nun Baş konfransı tərəfindən cazın universal azadlıq və yaradıcılıq dili kimi xüsusi rolunun tanınması məqsədi ilə elan edilən Beynəlxalq Caz Günü 2011-ci il aprelin 30-dan hər il bütün dünyada qeyd olunur.





Afrika ənənələrindən köklənən, Amerika Birləşmiş Ştatlarda yaranan və zamanla yeni formalar kəsb edərək əksər xalqların musiqi xəzinəsini dəyərli əsərlərlə zənginləşdirən cazın dünya mədəniyyətində məxsusi yeri var.

Caz musiqisi 1920-ci illərdə artıq nəinki yarandığı ölkədə öz varlığını təsdiq etdi, sərhədləri aşaraq dünyanı dolaşmağa başladı. Böyük bir ərazini öz hökmündə saxlayan SSRİ (Sovet Sosialist Respublikalar İttifaqı) dünyada baş verən dəyişikliklərə, yeniliklərə açıq olmasa da, bu musiqi sənəti onun da möhkəm bağladığı qapılarını açmağa müvəffəq oldu. İttifaqın tərkibində olan Azərbaycanda da caz musiqisi tanınmağa başladı. Amma burada da onun yolu asan olmadı...

Azərbaycan cazının bünövrəsi 30-cu illərin sonunda qoyuldu. Bakıda Niyazi və Tofiq Quliyev "Dövlət Cazı" adı ilə tanınan Dövlət Estrada Orkestrini yaratdılar. Orkestrin ilk konsert proqramına klassik cazla eyni səviyyədə Niyazinin və Tofiq Quliyevin əsərləri də daxil edildi. "Dövlət Cazı" 1930-cu illərdə böyük populyarlıq qazandı.

1940-cı illərin ikinci yarısında, Böyük Vətən müharibəsindən sonra "Dövlət Cazı"nın rəhbəri Rauf Hacıyev oldu. Orkestr əvvəlki şöhrətini qoruyub saxladı.

1950-ci illərədək Azərbaycan caz ifaçılığında saksafonçu, cazmen Pərviz Rüstəmbəyov önəmli yer tutdu. "Sovet Benni Qudmeni" adlandırılan Pərviz Rüstəmbəyov əvvəl "Krasnıy Vostok" (sonralar "Azərbaycan" adlandırıldı) kinoteatrında, ardınca "Nizami" kinoteatrında öz caz orkestrini yaratdı.

1950-1960-cı illərdə SSRİ-də Qərb əleyhinə təbliğatdan caz musiqisi də qurtula bilmədi. Amma qadağalar bu musiqinin pərəstişkarlarının sayını azalda bilmədi. Əksinə, caza sevgi gündən-günə böyüdü. Həmin dövrdə caz musiqisini estrada adı ilə pərdələyərək konsert və teatr salonlarında təqdim edənlərdən biri də Tofiq Əhmədov idi. O, axşamlar klub orkestrində çalışırdı, alt-saksafonda ifa etdiyi musiqilər dinləyicilər tərəfindən hərarətlə qarşılanırdı. Tofiq Əhmədov həm xalq mahnılarını caz üslubunda aranjiman edir, onların üzərində işləyərək orkestr üçün fantaziyalar yaradırdı, həm də instrumental musiqilər bəstələyir və həmin əsərlərin solo hissələrini özü ifa edirdi.

### Ruha doğma yad musiqi...

Müsahibimiz tanınmış müğənni Cavan Zeynallı 1960-cı illəri belə xatırlayır: "Radioda verilən caz əsərlərindən ibarət konserti həsrətlə gözləyirdik. Cazı sevənlər çox olsa da, onların arasında gənclər üstünlük təşkil edirdi. O zaman Azəbaycan caz sənəti yeni bir adla, böyük istedadla - Vaqif Mustafazadə ilə tanınmağa başlamışdı. Onun ifa etdiyi musiqi cazsevərlər tərəfindən böyük coşğu ilə qarşılanırdı. Xarici caz əsərlərindən, məşhur caz ifaçılarından da xəbərsiz deyildik. Sovet hakimiyyətinin qadağalarının hüdudu olmayan illər idi. Radioda Qərb kanallarını çox çətinliklə tuturduq. Səs xırıltılı gəlirdi. Ancaq caz musiqisini dinləməyimizin, onu sevməyimizin qarşısını almaq mümkün deyildi. Çox vaxt gənclər bir yerə toplaşır, birlikdə radioda səslənən caz əsərlərini dinləyirdik".

### Azərbaycanda caz sevgisi...

1960-cı illərdə Qara Qarayev, Niyazi, Tofiq Quliyev və Rauf Hacıyevin dəstəyi və rəhbərliyi ilə Azərbaycanda estrada və caz musiqisinin yeni mərhələsi başladı. "Qaya", Rafiq Babayevin kvarteti yarandı. Vaqif Mustafazadə sənəti isə artıq Azərbaycan cazını dünyada tanıdırdı. Dünyada lirik cazın banisi sayılan Vaqif Mustafazadə ilk dəfə Gürcüstanda - Tbilisi Dövlət Filarmoniyasında "Qafqaz" caz-triosunu yaratdı. O, ilk "Leyli" qadın kvartetini təşkil edərək, "Sevil" vokal-instrumental ansamblı və "Muğam" instrumental ansamblının rəhbəri oldu.

Vaqif Mustafazadə 1960-cı illərin əvvəllərində Azərbaycan muğamlarını ənənəvi caz texnikası ilə birləşdirərək muğam ilə cazın sintezini yaratdı. Bununla gənc ifaçı həm Şərq muğamını Qərb dinləyicisinə öz dilində - caz dilində, həm də soydaşlarına cazı duya, anlaya biləcəkləri muğam dilində təqdim etdi. Məşhur caz tənqidçisi Velis Konover deyirdi: "Vaqif Mustafazadə ekstra ifaçıdır. O, dinlədiyin lirik caz ifaçıları arasında ən gözəl ifaçıdır".

...Aradan uzun illər ötəndən sonra Cavan Zeynallı Azərbaycanda caz sənətinin çətin də olsa, yüksəldiyi o çağları yada salır. "Asəf Zeynallı adına musiqi məktəbində oxuyurdum. İfası məni heyran edən Vaqif Mustafazadə ilə tanış olmaq istəyirdim. Ancaq nə qədər çalışsam da, buna imkan tapmırdım. O vaxtlar "Baku" qəzetində işləyən dostum Hacı Babayevə Vaqif Mustafazadə ilə tanış olmağı çox arzuladığımı söylədim. Bir az fikirləşəndən sonra mənə dedi: "Gəl səni Vaqifdən qəzet üçün müsahibə almağa göndərim". Ağlabatan fikir idi. İçərişəhərə, Vaqifgilin evlərinə yollandım. Qapıda məni çox mehriban, nəzakətli bir qadın qarşıladı. Vaqifin anası Zivər xanım idi. Vaqif Mustafazadədən "Baku" qəzeti üçün müsahibə almağa gəldiyimi biləndə məni evə dəvət etdi. Həyəcandan əllərim əsirdi. Bu qədər pərəstiş bəslədiyim ifaçı ilə söhbət edəcəkdim... Müsahibə baş tutdu və "Baku" qəzetində dərc edildi. Sonralar biz Vaqiflə həm dost olduq, həm də birgə işləməyə başladıq".

Sonra Cavan Zeynallı Rəşid Behbudovun mahnı teatrında solist kimi fəaliyyət göstərdi. Bu kollektivlə birlikdə dünyanın bir sıra ölkələrində qastrol səfərlərində oldu, dinləyicilərin sevgisini qazandı.

### "Qaya" əfsanəsi

O illərin şöhrətli "Qaya" ansamblının üzvlərindən biri - Lev Yelisavetski ölkədən köçüb getdikdən sonra onu əvəz edəcək ifaçı tapmaq asan olmadı. Ansamblın rəhbəri Teymur Mirzəyev uzun axtarışlardan sonra Cavan Zeynallını seçdi. Müsahimiz bu əfsanəvi heyətə dəvət olunmağın, iyirmi il işləməyin böyük xoşbəxtlik olduğunu deyir. Həmin illərdə qazandığı təcrübəni, tamaşaçı rəğbətini heç nə ilə əvəz etmək olmaz. Cavan Zeynallı indi də o illəri nisgillə yada salır: "Mən həmişə caza vurğun olmuşam, istedadlı ifaçıların çıxışlarını böyük maraqla dinləmişəm və onlar kimi oxumağa çalışmışam. "Qaya" ansamblına gəlincə, o, bir əfsanə idi. Oleq Lundstremin biq-bendi ilə kruiz çıxışlarımızı, Qara dəniz sahillərində on altı konsert verməyimiz, İrina Otiyeva, Larisa Dolina ilə birlikdə ifalarımız unudulmazdır".

"Qaya" kollektivi dağılandan sonra Cavan Zeynallı yenidən solo fəaliyyətinə qayıtdı. Azərbaycanda caz sənəti məhv olmaq həddinə çatmışdı. Vəziyyət gündən-günə mürəkkəbləşirdi. Musiqiçilərin çoxu Bakını tərk edirdilər. O zaman təkcə Cavan Zeynallı deyil, bütün cazsevərlər cazın çox da uzaq olmayan illərdəki qızıl dövrünü həsrətlə xatırlayırdılar. Həmin dövrdə Azərbaycan cazı sürətlə inkişaf edirdi. 1967-ci ilin iyununda Bakıda Yaşıl Teatrda ilk caz festivalı keçirildi. Bir il sonra növbəti festival Əl Oyunları Sarayında təşkil edildi.

1969-cu ildə Bakıda daha genişmiqyaslı caz festivalı düzənləndi. Festivala Rusiyadan, Gürcüstandan, Estoniyadan musiqiçilər gəldi. Bundan sonra azərbaycanlı caz musiqiçilərini SSRİ-nin başqa şəhərlərində keçirilən festivallara tez-tez dəvət etməyə başladılar.

1970-ci illər Azərbaycan cazının əsl tərəqqi dövrü idi. Yeni caz ifaçıları yetişirdi. 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində "Qızıl payız" festivalları, Vaqif Mustafazadənin xatirəsinə həsr edilmiş "Bakı-83" festivalı və digər tədbirlər keçirildi. 1987-ci ildə olan "Bakı-1987" Ümumittifaq caz festivalında Sovet İttifiqanın ən populyar caz qrupları çıxış etdilər.

1980-ci illərin sonlarında baş verən ictimai-siyasi hadisələr nəticəsində Azərbaycanda cazın inkişafında da ciddi geriləmə oldu. Bir çox musiqiçi ölkəni tərk etdi, bəzilərinin ağır maddi vəziyyətləri bu sənətdən uzaqlaşmalarına səbəb oldu. Azərbaycan cazında boşluq yarandı.

Belə ziddiyyətli vaxtda - 1991-ci ildə Rafiq Babayev "Cəngi" folklor-caz kollektivini təşkil etdi və musiqi layihələrinin həyata keçirilməsinə kömək edən səsyazma studiyası yaratdı.

1994-cü ildə acı xəbər yayıldı. Bakı Metropolitenində baş verən terror aktı nəticəsində həlak olanların arasında Rafiq Babayev də var idi.

Yeni əsrin birinci onilliyində caz festivalları Azərbaycanda cazın inkişafında müsbət dönüş yaratdı. 2000-ci ilin 21 mayında Azərbaycanda caz mədəniyyətinin inkişafı və dəstəklənməsi məqsədi ilə "Bakı Caz Mərkəzi" yaradıldı. 2005-ci ildə Bakıda cəmi iki caz orkestri - Bakı Dövlət Sirkinin "Arena" orkestri və Azərbaycan Dövlət Teleradio Şirkətinin estrada-simfonik orkestri var idi. 2007-ci ildən Bakı Beynəlxalq Caz Festivalı dövlət dəstəyi qazanaraq, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilməyə başlandı. 2009-cu ildən Azərbaycanda keçirilən "Bakı Caz Festival"ı ölkəmizdə cazın inkişafına töhfəsini verir. Bu gün Cəmil Əmirov, Salman Qəmbərov, Emil Əfrasiyab, Əfqan Rəsul, Elçin Şirinov, İsfar Sarabski, Nicat Aslanov və başqaları Azərbaycanın müasir caz ifaçılığı sənətini xarici ölkələrdə tanıdırlar. Böyük təməllər üzərində qurulan Azərbaycan cazını gənc ifaçılarımız davam etdirirlər. Onlardan biri - Nicat Aslanov bildirir ki, son illər ölkəmizdə bütün sahələrdə olduğu kimi caz sənətinin inkişafına da dövlət qayğısı yüksəkdir: "Azərbaycanda çox istedadlı caz ifaçıları olub. Onlar bu sənəti yüksəkliklərə qaldırıblar. Bu gün də Azərbaycan caz ənənəsini yaşadan və inkişaf etdirən ifaçılarımız az deyil. Onlar həm Şərq, həm də müasir Qərb mədəniyyətinə xas formalar axtarır, böyük işlər görürlər. Azərbaycanda caz tərəqqi edir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və ayrı-ayrı şəxslər musiqiçilərə kömək edirlər. Bakıda keçirilən müxtəlif caz festivalları və konsertləri, regionlarda təşkil edilən caz tədbirləri böyük maraqla qarşılanır. Sənəti ucaldan sevgidir. Və bu gün Azərbaycanda caz sənətinə böyük sevgi var".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən elmi konfrans

Dünən Sumqayıt Dövlət Universitetində "Azərbaycan Xalq Cümhuriyyəti: təşəkkülü, fəaliyyəti, tarixi əhəmiyyəti" mövzusunda respublika elmi konfransı keçirilib. Konfransda respublikamızda fəaliyyət göstərən bir çox ali təhsil müəssisələrinin alimləri iştirak ediblər.



Tədbiri universitetin rektoru, professor Elxan Hüseynov açaraq bildirib ki, Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" imzaladığı sərəncam ölkə tarixində adi hadisə deyil. Bu sərəncam bir daha təsdiqlədi ki, müasir müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir.

Natiq bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan AXC cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu təsdiqlədi. Qısa vaxt ərzində Azərbaycan Xalq Cümhuriyyəti bir çox sahələrdə həyata keçirdiyi islahatlarla ölkə tarixində mühüm bir mərhələnin əsasını qoydu. Həmin dövrdə demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı əhəmiyyətli addımlarla qısa müddətdə xalqımızın tarixində silinməz iz buraxaraq milli dövlətçilik ənənələrinin formalaşdırılması işində böyük rol oynadı. Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi. Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə qəlbində və şüurunda yaşatdı. Xüsusən, ümummilli lider Heydər Əliyevin respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə həqiqətə çevrilməsinə zəmin yaratdı. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. Ümummilli lider Heydər Əliyevin güclü iradəsi, uzaqgörən siyasəti və digər mühüm keyfiyyətləri Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi və beləliklə, ölkədə dövlətçiliyin yeni inkişaf mərhələsi başladı. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müasir inkişaf strategiyası Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi.

Konfransda SDU-nun Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri professor Şirxan Səlimov, AzTU-nun İctimai fənlər kafedrasının müdiri professor Şikar Qasımov, ADİU-nun Humanitar fənlər kafedrasının professoru Hidayət Cəfərov həmin dövrü əks etdirən mövzularla çıxış etdilər. Bildirildi ki, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik respublikanın elan edilməsi xalqımızın imperiya əsarətindən qurtulmaq üçün apardığı milli azadlıq mücadiləsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan dövlətçilik ənənələrimizin bərpası idi.

Onu da bildirək ki, SDU-da keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş elmi konfrans respublikada fəaliyyət göstərən ali məktəblərdən 122 tezis qəbul edib. Həmin tezislər toplanaraq məcmuə şəklində çap olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Bədii gimnastika üzrə Dünya Kubokunun ikinci günündə fərdi proqramda qaliblər müəyyənləşib

*Komanda yarışlarında Azərbaycan millisi Dünya Kubokunun finalına yüksəlib*




Bakıda, Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə Dünya Kuboku yarışlarının ikinci günündə - aprelin 28-də fərdi proqramda qaliblər müəyyənləşib. Komanda yarışlarında isə Azərbaycan millisi Dünya Kubokunun finalına yüksəlib. AZƏRTAC xəbər verir ki, çoxnövçülük üzrə təsnifat yarışlarında 13 ölkənin yığması arasında mübarizə aparan Azərbaycanın bədii gimnastika komandası 14,650 xalla yeddinci yeri tutub. Komandamız iki gün ərzində çıxışlarının yekunlarına əsasən 31,800 xalla səkkizinci olub və finala yüksəlib. Beləliklə, Azərbaycan gimnastika millisi aprelin 29-da baş tutacaq Dünya Kuboku yarışının final mərhələsinə vəsiqə qazanıb.

Çoxnövçülük yarışında İtaliya millisi 40,650 xalla birinci, Bolqarıstan yığması 38,400 xalla ikinci, Yaponiya komandası isə 35,550 xalla üçüncü yeri tutub.

Mükafatları qalib komandalara Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Beynəlxalq Gimnastika Federasiyasının (UEG) texniki məsələlər üzrə nümayəndəsi Kerolayn Hant, Ukrayna Bədii Gimnastika Federasiyasının vitse-prezidenti İrina Derugina və Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə təqdim ediblər. İtaliya komandası, həmçinin "AGF Trophy-2018" və Dünya Kuboku yarışlarının ən yüksək mükafatına layiq görülüb.

Çoxnövçülük yarışında Azərbaycan milli komandasının heyətində gimnastlarımızdan Ayşən Bayramova, Siyana Vasilyeva, Zeynəb Hümmətova, Aliyə Paşayeva və Diana Doman mübarizə aparıblar.

Fərdi proqramda isə çoxnövçülük (gürzlər və lent) yarışları başa çatıb. Yarışların "A" qrupunda çıxış edən gimnastlarımız Zöhrə Ağamirova və Veronika Hudis iki hərəkətin cəmində müvafiq olaraq 29,250 və 30,050 xal toplayıblar. Çoxnövçülük üzrə ümumi nəticədə V.Hudis 60,650, Z.Ağamirova isə 59,750 xal toplayaraq müvafiq olaraq 12-ci və 17-ci yerlərdə qərarlaşıblar.

"A" və "B" qruplarında çıxış edən gimnastların ümumi nəticələrinin cəminə görə rusiyalı Maria Sergeyeva 69,050 xalla bütün rəqiblərini qabaqlayıb. Ukraynalı Vlada Nikolçenko 67,550 xalla gümüş, Belarus təmsilçisi Anastasiya Salos isə 66,550 xalla bürünc medala layiq görülüb.

Gimnastların mükafatlandırılması mərasimində medalları qaliblərə bədii gimnastika üzrə Azərbaycan yığmasının baş məşqçisi Mariana Vasilyeva, Gürcüstan Bədii Gimnastika Federasiyasının (BGF) prezidenti Nelli Saladze və Beynəlxalq Gimnastika Federasiyasının hakimlər üzrə nümayəndəsi Karolina Hant təqdim ediblər.

Bu il keçirilən Dünya Kuboku turniri mərhələlərində ən yaxşı nəticə göstərən İsrail gimnastı Linoy Aşram BGF-in xüsusi mükafatına layiq görülüb. L.Aşram Bakıda keçirilən sonuncu - dördüncü Dünya Kuboku yarışlarında iştirak etməsə də o, bu mükafata əvvəlki üç dünya kubokunun nəticələrinə əsasən layiq bilinib. Mükafat İsrail Gimnastika Federasiyasının nümayəndəsi Fira Voronova təqdim olunub.

Fərdi çoxnövçülük üzrə "Ən yüksək icra xalı" nominasiyasının qalibi isə Rusiya təmsilçisi Mariya Sergeyeva olub. "AGF Trophy" kubokunu ona Mariana Vasilyeva təqdim edib.

Bədii gimnastika üzrə Dünya Kuboku yarışlarında 26 ölkədən 127 gimnast mübarizəyə qoşulub. Onlardan 44-ü fərdi proqramda, 83-ü isə qrup komandalarının tərkibində çıxış edib. Turnirə aprelin 29-da yekun vurulacaq.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Pentaqon Polşadakı hərbi kontingentini artıra bilər



ABŞ Polşa ərazisində özünün hərbi kontingentini artırmaq barədə danışıqlara hazırdır. Bu barədə Vaşinqtonda Polşanın müdafiə naziri Mariuş Blaşşakla görüşü zamanı Pentaqonun başçısı Ceyms Mettis jurnalistlərə bildirmişdir.

ABŞ-ın müdafiə naziri vurğulamışdır ki, Polşa Amerikanın NATO üzrə müttəfiqidir. "Biz təhlükəsizliyin təmin edilməsi tələbatına uyğun olaraq qoşunlarımızı NATO-da yerləşdiririk. Ona görə də bu cür müzakirələrə həmişə hazırıq" - deyə Mettis qeyd etmişdir.

Xatırladaq ki, ötən il Şimali Atlantika alyansı Krım məsələsinə görə Moskva ilə münasibətlərin gərginləşməsi fonunda Polşa, Latviya, Litva və Estoniyada dörd beynəlxalq tabor yerləşdirmişdir.

Bundan əlavə, keçən ayın axırlarında Polşa və ABŞ iki ədəd "Patriot" zenit-raket kompleksinin alınması üçün saziş imzalamışlar. Sistemlərin ümumi dəyəri 3,8 milyard avrodur. Polşa "Patriot"ları 2022-ci ilədək alacaq.

### Əfqanıstanda intiharçı hərbi bazanın yaxınlığında avtomobili partlatdı



Əfqanıstanın cənubunda baş vermiş terror aktı nəticəsində 5 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Məlumata görə, hadisə Helmənd əyalətinin Nadali qəzasında baş vermişdir. İntiharçı minalanmış avtomobili hökumət qoşunlarının bazasının yaxınlığında partlatmışdır. Ölənlərin dördü dinc sakinlərdir.

### Çin məktəbinə silahlı hücum



Çin məktəbində baş vermiş hücumda ölənlərin sayı 9 nəfərə çatmışdır. Şensi əyalətinin Yuylin dairəsinin Miçji qəzasında silahlı kişinin bir qrup məktəbliyə hücumu zamanı zərər çəkmiş uşaqlardan daha ikisi aldığı yaradan xəstəxanada dünyasını dəyişmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Xatırladaq ki, srağagün Çjao adlı gənc məktəbdən qayıdan uşaqlara xəncərlə hücum etmişdir. 28 yaşlı qatil saxlanmışdır. O bildirmişdir ki, məktəbdə alçaldıldığını hələ də unutmur. Qatil hücumu keçmiş sinif yoldaşlarından qisas almaq üçün həyata keçirdiyini qeyd etmişdir. Məlumata görə, Çjaonun xəsarət yetirdiyi daha 10 uşaq hələ də xəstəxanada müalicə olunur.

### Qvatemalanın eks-prezidenti vəfat etdi

Qvatemalanın sabiq prezidenti və paytaxt ıneri Alvaro Arsu İriqoyen 72 yaşında vəfat etmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

İriqoyenin xəstəxanada dünyasını dəyişdiyi bildirilir. Ölkənin hazırkı başçısı Cimmi Morales eks-prezidentin ölümü ilə bağlı demişdir: "Qvatemala bütün həyatını ölkəyə xidmətə həsr etmiş böyük insanı itirdi. O, siyasətçi, lider və əsl dost idi".

Xatırladaq ki, Alvaro Arsu İriqoyen 1996-2000-ci illərdə Qvatemalaya rəhbərlik etmişdir. O, 2012-ci ildən ölkə paytaxtının meri vəzifəsini tuturdu.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Çingiz Məmmədova atası

**ƏLƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8810
Sifariş 1182